# QARABAĞ AZƏRBAYCANDIR!




## Azad Şuşamız dirçəlir

4




# Səs

№ 179 (6620) 1 oktyabr 2022-ci il. Qiyməti 60 qəpik


## İlham Əliyev: “Bolqarıstan və Azərbaycan strateji tərəfdaşdırlar”

2



5



## Pensiyaların artımı hansı şəxslərə şamil ediləcək?

*Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən hazırlanan "Əmək pensiyaları haqqında" Qanununa dəyişiklik layihəsinə əsasən 2023-cü ilin yanvarın 1-dən bütün növ pensiyaların indeksləşdirilərək artırılması mexanizmi tətbiq ediləcək. Bəs pensiyaların artımı hansı şəxslərə şamil ediləcək? Nə qədər artım nəzərdə tutulub?*

# Rusiya Ermənistanın ağır xəyanətini bağışlayacaqmı?



5

13

## Medianın İnkişafı Agentliyində Mətbuat Şurasının sədri ilə görüş keçirilib



5

## Bitdimi?..



7

## Yol qəzalarında yenə 3 nəfər ölüb



14



## Ermənistanın təxribatları bu ölkəyə baha başa oturacaq

İrəvanın havadarları bu ölkənin Azərbaycana qarşı yürütdüyü 30 illik işğalçılıq siyasəti dövründə niyə danışmırdılar, beynəlxalq qanunları, ədalət prinsipini nəyə görə müdafiə etmirdilər?



## Kasilyas Şakira ilə eşq yaşayır?

*“Real”ın sabiq qapıçısı İker Kasilyas kolumbiyalı müğənni Şakira ilə sevgili olduqları barədə yayılan xəbərlərə münasibət bildirib. Qol.az xəbər verir ki, tərəflər İnstaqram hesablarından bir-birlərini izləməyə aldıqlarından sonra onların sevgili olduğu haqda söz-söhbətlər yaranmağa başlayıb.*



## Xaricdə təhsil almaq üçün hansı sənədlər lazımdır?

16

*“Azərbaycanda təhsil almaq üçün müraciət edən əcnəbilər xüsusi qabiliyyət səviyyələri təhsil müəssisələrinin müəllimləri tərəfindən yoxlanılıb, tədris standartlarımıza uyğun olduğu təsdiqləndikdən...*

# İlham Əliyev: “Bolqarıstan və Azərbaycan strateji tərəfdaşdırlar”

## *Prezident İlham Əliyev sentyabrın 30-da Bolqarıstana rəsmi səfər edib*



***Azərbaycan Prezidenti İlham Əliyevin sentyabrın 30-da Bolqarıstanın paytaxtı Sofiya şəhərinin Aleksandr Nevski meydanında rəsmi qarşılanma mərasimi olub. Azərbaycanın və Bolqarıstanın Dövlət bayraqlarının dalğalandığı meydanda Azərbaycan Prezidenti İlham Əliyevi Bolqarıstan Prezidenti Rumen Radev qarşılayıb. Həmin gün Sofiyada Azərbaycan Prezidenti İlham Əliyevin Bolqarıstan Prezidenti Rumen Radevlə təkbətək görüşü olub. Daha sonra Sofiyada Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Bolqarıstan Respublikasının Prezidenti Rumen Radev ilə geniş tərkibdə görüşü olub. Bolqarıstan Prezidenti Rumen Radev görüşdə çıxış edərək bildirib ki, Azərbaycan etibarlı və sınanmış tərəfdaşdır:***

”Biz bu səfəri bir imkan kimi dəyərləndiririk ki, biz Sizin qonaqpərvərliyinizə qarşılıq verə bilək. Biz ikitərəfli münasibətlərimizi müzakirə edəcəyik və müəyyən çağırışların öhdəsindən gəlmək üçün müəyyən imkanları nəzərdən keçirəcəyik. Biz Azərbaycanla sıx dostluq, qarşılıqlı hörmət münasibətlərinə malikik. Bizim ən yüksək səviyyədə siyasi dialoqumuz il ərzində çox fəal olub, münasibətlərimiz artıq strateji tərəfdaşlıq səviyyəsinə qalxmışdır. Bizim üçün Azərbaycan etibarlı və sınanmış tərəfdaşdır. Əminəm, bizim qarşılıqlı marağımız var ki, bütün sahələr üzrə praqmatik və səmərəli münasibətlərimizi inkişaf etdirək.”

Daha sonra Prezident İlham Əliyev çıxış edərək bildirib ki, Bolqarıstan-Azərbaycan əlaqələri çoxşaxəli əlaqələrdir: ”Siz tamamilə haqlı qeyd etdiniz ki, Bolqarıstan və Azərbaycan strateji tərəfdaşdırlar. Strateji tərəfdaşlıq haqqında Bəyannamə yeddi il bundan əvvəl imzalanıb və bu illər ərzində bu strateji tərəfdaşlıq demək olar ki, bir çox sahələrdə özünü göstərmişdir. Mən Sizin Azərbaycana rəsmi səfərinizi xatırlayıram. Səfər zamanı apardığımız müzakirələr və qəbul etdiyimiz qərarlar həyatda öz əksini tapır. Qeyd etdiyiniz kimi, sabah Bolqarıstanda çox önəmli hadisə baş verəcək - biz Yunanıstan-Bolqarıstan İnterkonnektoru layihəsinin başlanğıcını qeyd edəcəyik. Bu münasibətlə bəri başdan Sizi təbrik edirəm.

Bizim bütün sahələrdə əməkdaşlığımızın təməlində səmimi münasibətlər dayanır. Bolqarıstan-Azərbaycan əlaqələri çoxşaxəli əlaqələrdir. Xalqlarımız arasındakı tarixi bağlar, əlbəttə ki, bu əlaqələrin təməlində dayanan mühüm amildir. Bu gün, əlbəttə ki, qarşılıqlı maraqlar üzərində qurulmuş o strateji tərəfdaşlıq yeni imkanlar açır.”



Daha sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Bolqarıstan Respublikasının Prezidenti Rumen Radev ilə geniş tərkibdə görüşü olub. Geniş tərkibdə görüş başa çatandan sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Bolqarıstan Respublikasının Prezidenti Rumen Radev mətbuata bəyanatlarla çıxış ediblər. Bolqarıstan Prezidenti Rumen Rade: ”Böyük məmnuniyyətlə deyə bilərəm ki, ölkələrimiz arasında ən yüksək səviyyədə çox fəal siyasi dialoq var. Biz artıq bunun sayəsində münasibətlərimizi strateji tərəfdaşlıq səviyyəsinə qaldırmışıq. Azərbaycan bizim üçün arzuolunan, etibarlı tərəfdaşdır. Mən çox şadam ki, bu məsələdə də mövqelərimiz üst-üstə düşür və biz həmin bu praqmatik və səmərəli əməkdaşlığımızı bir çox sahələr üzrə irəli aparmaq niyyətindəyik.”

Prezident İlham Əliyev: ”Əminəm ki, strateji tərəfdaşlar kimi biz bu gün müzakirə edilən əsas məsələ olan enerji təhlükəsizliyi sahəsində əlavə addımlar atacağıq. Artıq bu sahədə də tərəfdaşlıq gerçəkləşib, Azərbaycan qazı indi Bolqarıstandadır. Bu gün Prezidentlə söhbət zamanı biz Bolqarıstana ixrac ediləcək Azərbaycan qazının həcminin artırılmasını da müzakirə etdik və müvafiq göstərişlər verilmişdir. Enerji təhlükəsizliyi məsələləri bütün dövrlərdə mühüm əhəmiyyət kəsb edir, ancaq indiki şəraitdə bu əhəmiyyət daha da artmışdır. Biz bunu yaxşı dərk edirik. Ona görə əlimizdən gələni edirik ki, qaz hasilatını artıraq və tərəfdaşlarımızı təbii qazla təmin edək. Azərbaycan uzun illərdir etibarlı tərəfdaş kimi xam neftini dünya və Avropa bazarlarına ixrac edir. İndi təbii qazı ixrac edən Azərbaycan bu sahədə də etibarlı tərəfdaş kimi özünü göstərəcəkdir.”



*İlham Əliyev: "Azərbaycan uzun illərdir etibarlı tərəfdaş kimi xam neftini dünya və Avropa bazarlarına ixrac edir"*



*Rumen Radev: "Azərbaycan etibarlı və sınanmış tərəfdaşdır"*

həmin gün Azərbaycan Prezidenti İlham Əliyev Bolqarıstana rəsmi səfəri çərçivəsində bu ölkənin aparıcı biznes dairələrinin nümayəndələri ilə də görüşüb.

**Azərbaycanın görkəmli dövlət xadimi, Ulu Öndər Heydər Əliyev ölkə həyatının bütün sahələrini əhatə edən misilsiz xidmətləri ilə adını Azərbaycan dövlətinin tarixinə əbədi olaraq həkk etmişdir. Xalqın və ölkənin taleyində əvəzsiz rolu olan Ulu Öndər Heydər Əliyev zəngin siyasi təcrübəsi, yüksək idarəçilik bacarığı, Vətənə olan tükənməz sevgisi ilə Azərbaycanın dövlət müstəqilliyini təhlükədən qurtardı. Xalqını zamanın mürəkkəb tarixi-siyasi sınaqlarından uğurla çıxaran və ardıcıl mübarizə apararaq onu müstəqilliyə qovuşduran Ulu Öndər Heydər Əliyev xalqın xilaskarı və Azərbaycanın Memarı və Qurucusu olaraq adını əbədiləşdirdi.**

# Müstəqil Azərbaycanın xilaskarı



*Dövlət başçısının Sərəncamı ilə 2023-cü il "Heydər Əliyev İli" elan edildi*

Qeyri-adi idarəçilik bacarığı, polad iradəsi və yüksək vətənpərvərliyi sayəsində, uzaqgörən və məqsədyönlü qərarları ilə ölkəmizdə sosial-iqtisadi, elmi-texniki və mədəni sahələrin inkişafında böyük sıçrayışa nail olan Ulu Öndər Heydər Əliyevin - tarixi Şəxsiyyətin 100 illik yubileyinin dövlət səviyyəsində qeyd olunmasını təmin etmək məqsədilə Azərbaycan Prezidenti İlham Əliyev Sərəncam imzalayıb. Sərəncama əsasən, Azərbaycan Respublikasında 2023-cü il "Heydər Əliyev İli" elan edilib. Azərbaycan Respublikası Prezidentinin Administrasiyası Azərbaycan Respublikasında 2023-cü ilin "Heydər Əliyev İli" elan edilməsi ilə bağlı tədbirlər planına dair təkliflərini iki ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim edəcək.

### "60-CI İLLƏRDƏ RESPUBLİKA İQTİSADİYYATI BÜTÖVLÜKDƏ DƏRİN VƏ UZUNMÜDDƏTLİ BÖHRAN MƏRHƏLƏSİNƏ QƏDƏM QOYMUŞDU"

Hələ Ulu Öndər Heydər Əliyev 1969-cu ildə Azərbaycana rəhbərlik etməyə başladığı ilk gündən o zaman ən geridə qalmış respublikalardan biri sayılan Azərbaycanı qısa vaxt ərzində keçmiş İttifaqın ən qabaqcıl respublikaları səviyyəsinə yüksətdi. Ulu Öndər yazırdı: "Qətiyyətlə bildirmək olar ki, 60-cı illərdə respublika iqtisadiyyatı bütövlükdə dərin və uzunmüddətli böhran mərhələsinə qədəm qoymuşdu. Yaranmış ağır vəziyyətdən çıxış yolu tapılmalı, iqtisadiyyatın inkişafı üçün prinsipial cəhətdən yeni konseptual yanaşma yolları işlənib hazırlanmalı, xalq təsərrüfatında köklü struktur dəyişiklikləri aparılmalı, təsərrüfatçılıq və iqtisadi həvəsləndirmə işində təzə metodlar tətbiq edilməli idi". Doğma xalqının böyük təəssübkeşi olan Ulu Öndər Heydər Əliyev totalitar rejimin hökmranlıq etdiyi mürəkkəb tarixi şəraitdə Azərbaycanı Sovet İttifaqının ən qabaqcıl respublikalarından birinə çevirmək üçün həyatın bütün sahələrində geniş islahatlar proqramı həyata keçirməyə başladı. Həmin illər sovet Azərbaycanının tarixinə, ən parlaq quruculuq dövrü kimi daxil oldu. Sənaye və kənd təsərrüfatının bütün sahələrində yüksəliş baş verdi. Respublika iqtisadiyyatında mühüm struktur dəyişiklikləri həyata keçirildi. Yeni və mütərəqqi sənaye sahələri yaradıldı. Sənayenin inkişaf səviyyəsinə görə bütün respublikanın proporsional inkişafı üçün mühüm tədbirlər görüldü. İstehsalla bilavasitə bağlı olan elmi-tədqiqat sahələrinin inkişafına diqqət artırıldı. Elmi-texniki tərəqqinin nailiyyətlərinin, mütərəqqi texnologiyaların istehsalata tətbiqi sahəsində Azərbaycan bütün SSRİ-də qabaqcıl mövqelərə çıxdı. İstehsal olunan məhsulların keyfiyyət göstəricisi əvvəlki dövrlərlə müqayisə olunmayacaq dərəcədə yüksəldi. Heydər Əliyev bütün varlığı ilə sevdiyi və canından əziz bildiyi doğma xalqının mənafelərini daim önə çəkmiş və respublikamızın inkişafı üçün malik olduğu bütün imkanlardan istifadə etmişdir.

### 3 OKTYABR TARİXİNDƏ ÜMUMXALQ SƏSVERMƏSİ NƏTİCƏSİNDƏ ULU ÖNDƏR HEYDƏR ƏLİYEV AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ SEÇİLDİ

Azərbaycan xalqının Xilaskar Oğlu Heydər Əliyevin ikinci dəfə hakimiyyətə qayıdışı müstəqillik qazandığımız çox çətin və mürəkkəb illərə təsadüf edirdi. Dövlət müstəqilliyi haqqında Konstitusiya Aktı 1991-ci il oktyabrın 18-də qəbul edilsə də, Azərbaycan özünün əsl müstəqilliyini Ümummilli Lider Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra əldə etdi.

Müstəqil Azərbaycanın Qurucusu Heydər Əliyev ən yeni tariximizin çətin anlarından şərəflə çıxaraq, müstəqilliyimizin gerçəkləşməsində və ictimai-siyasi həyatımızın bütün istiqamətləri üzrə inkişafın təmin edilməsində qarant rolunu oynadı. YAP-ın yaradılması Azərbaycan dövlətçiliyinin formalaşması prosesinə təsirini göstərdi. YAP yaranandan, Azərbaycanın siyasi həyatında özünəməxsus rola malik olan təşkilat kimi qəbul edildi. Bunun da əsas səbəbi o idi ki, partiyanın rəhbərliyində Ulu Öndər Heydər Əliyev kimi Azərbaycan xalqının böyük hörmət və inam bəslədiyi Dahi Şəxsiyyət dayanırdı. YAP Azərbaycan dövlətinin müstəqilliyinin qorunub-saxlanılmasında və dövlətçiliyimizin inkişaf etdirilməsində müstəsna xidmətləri olan siyasi təşkilata çevrildi.

1993-cü ildə xalqın təkidli tələbi ilə Ulu Öndər Heydər Əliyevin hakimiyyətə qayıdışı ölkəmizin müstəqilliyini əbədi etmiş oldu. 1993-cü il iyunun 15-də Ümummilli Lider Heydər Əliyevin Azərbaycan Respublikası Milli Məclisinə Sədr seçilməsi ölkəmizin siyasi tarixində müstəsna rol oynadı və Azərbaycan keyfiyyətcə yeni bir mərhələyə qədəm qoydu. Milli Məclisin 1993-cü il iyunun 15-də keçirilən iclasındakı çıxışında Ulu Öndər Heydər Əliyev Azərbaycan dövlətçiliyinin gələcək inkişaf strategiyasını elan etdi və sonrakı illərdə onu həyata keçirdi. Ulu Öndər Heydər Əliyev milli dövlətçiliyin konsepsiyasını yaratdı. Bütün maneələrə baxmayaraq, ən qısa müddətdə, ölkədə ictimai-siyasi sabitlik bərpa olundu. Mürəkkəb siyasi şəraitdə Ümummilli Lider Heydər Əliyevin böyük potensialı Azərbaycanın müstəqilliyinin qarantına çevrildi.

### "AZƏRBAYCAN XALQI AZADLIĞINI ƏLDƏ ETMİŞ XALQ KİMİ YAŞAYACAQ, ÖZ MÜSTƏQİL DÖVLƏTİNİ QORUYACAQ, SAXLAYACAQ VƏ MÜSTƏQİL AZƏRBAYCAN RESPUBLİKASI ƏBƏDİ YAŞAYACAQDIR"

Ümummilli Lider Heydər Əliyevin adı ilə bağlı olan Milli Qurtuluş Günü Azərbaycan tarixinin şanlı qürur səhifəsinə çevrildi. 1993-cü il oktyabrın 3-də ümumxalq səsverməsi nəticəsində, Ulu Öndər Heydər Əliyev Azərbaycan Respublikasının Prezidenti seçildi. Ulu Öndər ölkədə xaos və anarxiyanı, cəmiyyətdə hökm sürən iqtisadi-siyasi və mənəvi-psixoloji gərginliyi aradan qaldırdı. Böyük zəka və iradə sahibi olan Ümummilli Lider Heydər Əliyev, qısa zaman kəsiyində, müharibə bölgəsində atəşkəsə, ölkədə möhkəm və dönməz sabitlik yaradılmasına, qeyri-qanuni silahlı dəstələrin ləğvinə, ümummilli böhrana son qoyaraq, demokratik islahatlar yoluna keçirilməsinə nail oldu.

"Azərbaycan xalqı azadlığını əldə etmiş xalq kimi yaşayacaq, öz müstəqil dövlətini qoruyacaq, saxlayacaq və müstəqil Azərbaycan Respublikası əbədi yaşayacaqdır", - deyən Ulu Öndər Heydər Əliyevin müəllifi olduğu 1994-cü ilin 20 sentyabrında nəhəng neft müqaviləsi - "Əsrin Müqaviləsi" imzalandı. Bununla da, Azərbaycan, ilk dəfə olaraq, öz sərvətlərinin sahibi kimi çıxış etdi. Dünyanın ən aparıcı dövlətlərinin ən qabaqcıl şirkətlərinin bu kontraktda iştirakı isə, ölkəmizin regionda əhəmiyyətini və nüfuzunu artırdı. Azərbaycan iri regional layihələrdə, Avropanın və bütövlükdə, dünya enerji təhlükəsizliyi sisteminə qoşuldu. Bu, Ümummilli Lider Heydər Əliyevin beynəlxalq nüfuzuna olan hörmətdən, Azərbaycanda sabit vəziyyətin və əlverişli investisiya mühitinin yaranacağına olan inamdan yaranmışdı.

Xalqımızı vahid amal ətrafında birləşdirən azərbaycançılıq ideologiyasının formalaşdırılması, ana dilinin dövlət qayğısı ilə əhatə olunması, ictimai-siyasi, elmi və mədəni fikir tariximizin əlamətdar hadisələrinin müntəzəm qeyd edilməsi ənənəsinin yaradılması, Azərbaycanın çoxəsrlik mənəvi-mədəni irsə sahib qədim diyar və sivilizasiyaların qovşağında yerləşən tolerantlıq məkanı kimi geniş şöhrət qazanması Heydər Əliyevin mükəmməl quruculuq proqramının tərkib hissələri olmuşdur.

### "MƏN HEYDƏR ƏLİYEV SİYASƏTİNİ DAVAM ETDİRƏCƏYƏM"

Ulu Öndər Heydər Əliyev tərəfindən qorunub-saxlanılan müstəqilliyimiz bu gün Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə daha da möhkəmləndirilir. Ulu Öndərin quruculuq və inkişaf xəttinin davamçısı olan Cənab İlham Əliyev Onun siyasi kursunu uğurla davam etdirməklə, ölkəmiz sabitliyin və inkişafın, vətəndaş həmrəyliyinin təmin olunduğu güclü dövlətə çevrilib. Azərbaycan Prezidenti Cənab İlham Əliyev hələ 2003-cü ildə Prezident seçkiləri ərəfəsində qeyd etmişdi ki, əgər Azərbaycan xalqı mənə etimad göstərərsə, mən Heydər Əliyev siyasətini davam etdirəcəyəm. Ötən on doqquz il, aydın şəkildə göstərdi ki, İlham Əliyev Prezidentliyi dövründə ölkənin həyatının bütün sahələrində verdiyi vədlərin hər birini yerinə yetirmişdir. Möhtəşəm nailiyyətlərin əldə olunması Azərbaycanı güclü və qüdrətli dövlətə çevirib. Bu gün Azərbaycanı 1990-cı illərin əvvəli ilə müqayisə etmək mümkün deyil. Müasir dövrümüzdə Azərbaycan Prezidenti Cənab İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən prioritet sahələrin inkişafının təmin edilməsinə hesablanan islahatlar qlobal miqyasda meydana çıxan yeni çağırışları, cəmiyyətin sosial sifarişlərini əhatə edir. Dövlət başçısının rəhbərliyi ilə reallaşdırılan ümummilli inkişaf strategiyası hər bir sahənin paralel inkişafını yüksək səviyyədə təmin edib və bu, davam etdirilməkdədir. Azərbaycanın beynəlxalq mövqelərinin möhkəmlənməsi, bir çox ölkələrlə çox səmərəli, işgüzar, ikitərəfli münasibətlərin qurulması, eləcə də Azərbaycanın çoxtərəfli əməkdaşlıq formatının təşəbbüskarı qismində çıxışı dövlətimizin uğurla xarici siyasət yürütməsini özündə ehtiva edir.

Son illər ölkəmizin iqtisadi qüdrətinin artması milli ordumuzun möhkəmlənməsinə də geniş imkan yaratmış oldu. Dövlət büdcəsindən hərbi sahəyə ayrılan xərclərin dəfələrlə artırılması ordumuzun bütün istiqamətlər üzrə potensialının yüksək səviyyəyə çatdırılmasına yol açdı. Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Silahlı Qüvvələrimizin modernləşdirilməsi, müasirləşdirilməsi, eləcə də, maddi-texniki bazasının ən müasir standartlar səviyyəsinə çatdırılması sahəsində kifayət qədər əhəmiyyətli işlər reallaşdırılıb. Məhz bunun nəticəsidir ki, Azərbaycan Vətən müharibəsində döyüş meydanında öz sözünü demiş oldu. Ulu Öndər Heydər Əliyevin həyat amalı, zaman və məkan anlayışına sığmayan siyasi fəaliyyətinin əsas məqsədi azad və müstəqil bir dövlət qurmaq idi. Daim azərbaycanlı olması ilə fəxr edən Ulu Öndərin ruhu şaddır. 30 ildən bəri düşmən əsarətində olan torpaqlarımız azadlığına qovuşmuşdur. Bu gün Prezident İlham Əliyevin rəhbərliyi ilə işğaldan azad olunmuş ərazilərimizdə yenidənqurma və bərpa işləri həyata keçirilməkdədir. Əlbəttə ki, bu uğurların təməlində Dahi Şəxsiyyət Heydər Əliyevin düşünülmüş siyasəti dayanır. Dövrünün ən nüfuzlu siyasətçiləri ilə bir sırada duran Heydər Əliyev Azərbaycanın müasir simasının, xalqımızın zəngin dəyərlərinin tanıdılması və ölkəmizin beynəlxalq münasibətlər sistemində layiqli mövqe qazanmasında müstəsna rol oynamışdır. Ermənistan-Azərbaycan münaqişəsinin beynəlxalq hüququn norma və prinsipləri əsasında həlli Ulu Öndərin qarşıya qoyduğu başlıca vəzifə olmuş, ölkəmizin bütün resursları, xalqımızın potensialı tarixi ədalətin bərpası üçün səfərbər edilmişdir. Ulu Öndərin şah əsəri olan güclü Azərbaycan dövləti öz suverenliyini, müstəqilliyini qorumağa qadir olduğunu 44 günlük Vətən müharibəsində şanlı Zəfər qazanmaqla sübuta yetirmişdir.

Bu gün Azərbaycan sürətlə inkişaf edən ölkəyə çevrilib. Azərbaycan dünyanın inkişaf etmiş ölkələri sırasında birgə addımlamağı əsas hədəf kimi qarşıya qoyub. Azərbaycan Prezidenti, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan siyasi və iqtisadi müstəqilliyini möhkəmləndirib, dövlətçiliyi inkişaf etdirib, demokratik dəyərlərə yiyələnib və özünün liberal prinsiplərə əsaslanan iqtisadi modelini yaradıb. Respublikamız, eyni zamanda, bütün dünyaya nümunə ola biləcək yeni geoiqtisadi güc mərkəzi modelini yaradıb.

Müstəqil Azərbaycan Ulu Öndərin indiki və gələcək nəsillərə əmanəti, onun zəngin və çoxşaxəli irsi isə xalqımızın milli sərvətidir. Bu müqəddəs mirası qoruyub saxlamaq hər bir azərbaycanlının şərəfli vəzifəsidir.

***Zümrüd BAYRAMOVA***

# Azad Şuşamız dirçəlir



*İlham Əliyev: "Əziz Şuşa, biz qayıtmışıq!"*

***Noyabrın 8-də 28 illik həsrətdən sonra Azərbaycan xalqı üçün böyük əhəmiyyət kəsb edən və rəmzi məna daşıyan Şuşa şəhəri işğaldan azad edildi. "Əziz Şuşa, sən azadsan! Əziz Şuşa, biz qayıtmışıq! Əziz Şuşa, biz səni dirçəldəcəyik! Şuşa bizimdir! Qarabağ bizimdir! Qarabağ Azərbaycandır!". Bu sözləri Azərbaycan Prezident İlham Əliyev Şuşa işğaldan azad olunan gün - noyabrın 8-də Şəhidlər xiyabanından xalqa müraciətində bildirmişdi. "Xoşbəxt adamam ki, ata vəsiyyətini yerinə yetirdim. Şuşanı azad etdik! Bu, böyük Qələbədir! Şəhidlərimizin, Ulu Öndərin ruhu şaddır bu gün! Gözün aydın olsun Azərbaycan! Gözünüz aydın olsun dünya azərbaycanlıları!" - deyə qeyd etmişdir.***

Müzəffər Ali Baş Komandan İlham Əliyevin verdiyi bu xoş xəbər Azərbaycanı ayaq üstə qaldırdı. İnsanlar küçələrə, meydanlara axışaraq qürur və böyük sevinc hisslərini paylaşıb, bir-birinə gözaydınlığı verirdilər. Azərbaycan Prezidenti Cənab İlham Əliyevin bu qürürverici ifadələrindən əzəmətli görəsən nə ola bilər?! Müzəffər Azərbaycan ordusunun və onun Sərkərdəsi Cənab İlham Əliyev tariximizə yeni bir gün yazdı. Ali Baş Komandan, Prezident İlham Əliyevin rəhbərliyi altında Azərbaycan Ordusu Ermənistanın ardıcıl təxribatlarının və yeni işğal planlarının qarşısını almaq, işğal altında olan torpaqlarımızı azad etmək məqsədilə sentyabrın 27-dən etibarən zəfər yürüşünə başlaması və qırx dörd gün davam edən hərbi əməliyyatlar nəticəsində Azərbaycan Ordusu Ermənistanın 30 il ərzində qurduğu silahlı qüvvələrini darmadağın etdi. 44 gün ərzində Ali Baş Komandanın rəhbərliyi ilə Ordumuz bütün dünyaya öz qüdrətini, gücünü nümayiş etdirdi. Bu günlər ərizində 5 şəhər, 4 qəsəbə, 286 kənd, çoxsaylı strateji yüksəkliklər işğaldan azad edildi. Bəli, bu gün Azərbaycanın güclü ordusu, yenilməz ordusu var. O ordu ki, döyüş meydanında öz gücünü göstərə bildi. Amma yeri gəlmişkən bildirək ki, ötən əsrin 90-cı illərində Azərbaycan bu gücə malik deyildi: "Şuşa işğal altına düşəndə bizim əsas problemlərimiz həm o idi ki, ordumuz yox idi, rəhbərlik öz vəzifə borcunu yerinə yetirə bilmirdi", - deyən Ali Baş Komandan ölkəmizin təcrid edilmiş vəziyyətdə olduğunu bildirmişdi: "Ancaq bu gün biz Ermənistanı təcrid edilmiş vəziyyətə saldıq".

Şuşanın alınması Ermənistanı tam tərksilah etdi, onun bütün manevr imkanları çökdü. Düşmənin ağ bayraq qaldırmaqdan başqa çıxış yolu yox idi. Dövlət başçısı tərəfindən Şuşa sevincini yaşadıqdan sonra, noyabrın 9-da Prezident İlham Əliyev 71 kəndin, bir qəsəbənin və 8 strateji yeksəkliyin işğaldan azad edildiyi barədə ölkə ictimaiyyətini məlumatlandırdı. Sanki hadisələr xronoloji ardıcıllıqla davam edirdi. Bu sevincləri yaşadan Azərbaycan əsgəri qəhrəmanlıq simvoluna çevrildi. Ölümün gözünə dik baxmaq bu idi. Hiyləgər düşmənlə üz-üzə torpaq uğrunda savaş. Döyüşdən qorxub qaçan erməni Azərbaycan əsgəri qarşısında məğlub olduğunu dünyaya göstərirdi. Azərbaycan, Rusiya prezidentləri və Ermənistanın Baş nazirinin birgə imzaladıqları bəyanat mahiyyət etibarilə Ermənistanın kapitulyasiyasıdır. Döyüş meydanında məğlubiyyətini dərk edən Ermənistan Prezident İlham Əliyevin münaqişənin ilk günlərindən bəyan etdiyi şərtləri qəbul etdi və kapitulyasiya şərtlərinə razılığını verdi.

## MƏNFUR DÜŞMƏN NƏ QƏDƏR ÇALIŞSA DA, ŞUŞANIN SİMASINI DƏYİŞDİRƏ BİLMƏYİB

Bu gün işğaldan azad olunan Şuşa dirçəlir. Alınmaz qala, Qarabağın tacı, mədəniyyətimizin beşiyi Şuşanın Prezident İlham Əliyevin Sərəncamı ilə Azərbaycanın Mədəniyyət Paytaxtı elan edilməsi bu şəhərin yenidən öz dirçəlməsinə, onun əvvəlki ruhunun qayıtmasına söykənir. Azərbaycanın tarixi-mədəni, ictimai-siyasi həyatının mühüm mərkəzlərindən biri olan Şuşanı 28 ildən çox əsarətdə saxlayan erməni işğalçıları onun simasını dəyişməyə cəhd göstərib, xalqımızın tarixi-mədəni irsinin məhv edilməsi siyasətini həyata keçirib. Buna baxmayaraq, Şuşa sınmayıb, əyilməyib. Dövlətimizin başçısının qeyd etdiyi kimi, mənfur düşmən nə qədər çalışsa da, Şuşanın simasını dəyişdirə bilməyib.

Bu gün Şuşa yenidən qurulur. Cənab Prezident Şuşaya hər səfəri tarixi hadisələrlə yadda qalır. Cari ilin sentyabrın 28-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Şuşa şəhərində inşa olunan yeni yaşayış kompleksində, Şuşa hotel və konfrans mərkəzində aparılan tikinti işləri ilə, Azərbaycan Respublikasının Prezidentinin Şuşa rayonunda xüsusi nümayəndəliyinin binasında yaradılan şəraitlə, Mehmandarovların malikanə kompleksində, yenidən qurulan hoteldə aparılan təmir-bərpa işlərinin və Şuşa şəhəri 1 saylı tam orta məktəbin binasında tikinti işlərinin gedişi ilə tanış olublar.

## ŞUŞALILARIN ƏZƏLİ TORPAQLARINA QAYIDACAĞI GÜN LAP YAXINDADIR

Şəhərdə inşa edilən yeni yaşayış kompleksinin tikinti işləri davam edir. Tikintinin ümumi sahəsi 8 hektara yaxındır. Yaşayış kompleksi 23 binadan ibarət olacaq. Səkkiz binanın tikintisinə bu il iyulun 1-də, digər 15 binanın inşasına isə sentyabrın 1-də başlanılıb. Yaşayış kompleksində ümumilikdə 450 mənzil olacaq. Burada birotaqlı mənzillərin sayı 28, ikiotaqlı mənzillərin sayı 195, üçotaqlı mənzillərin sayı 190, dördotaqlı mənzillərin sayı 30, beşotaqlı mənzillərin sayı isə 7-dir. Binalar 3 və 5 mərtəbəli olacaq. Kompleksdə sakinlərin rahat yaşayışı üçün hər cür şərait yaradılacaq. Ərazidə geniş abadlıq və yaşıllaşdırma işləri görüləcək. "Məcburi köçkünlər yaxşı bilirlər ki, onların öz dədə-baba torpaqlarına qayıtması üçün biz əlimizdən gələni edəcəyik, işğaldan azad edilmiş bu torpaqları yenidən quracağıq" sözləri Şuşa şəhərində yeni yaşayış kompleksinin inşası ilə bir daha təsdiqini tapır. Qədim mədəniyyət paytaxtımızda yaşayış kompleksinin yaradılması otuz ilə yaxın müddətdə doğma yurd-yuvalarına qovuşmaq həsrəti ilə yaşayan şuşalıların bu arzularına çatacağı günün lap yaxında olduğunu göstərir.

Şuşa şəhərində hotel və konfrans mərkəzinin inşası müasir standartlar çərçivəsində inşa olunur. Şuşa hotel və konfrans mərkəzinin inşası şəhərin tarixi görkəminin bərpası, əvvəlki şöhrətinin özünə qaytarılması və ənənəvi zəngin mədəni həyatına qovuşması üçün aparılan bərpa-quruculuq işlərində mühüm yer tutur. Xarici görünüşündə milli memarlıq elementləri tətbiq olunacaq. Fasadın üzlənməsində isə şəhərin tarixi binalarının tikintisində işlədilən Şuşa daşından istifadə ediləcək.

Şuşaya səfər zamanı dövlət başçısı və Birinci Xanım Şuşa şəhərində 1 saylı tam orta məktəbin binasında aparılan tikinti işlərinin gedişi ilə tanış olublar. Ümumi tikinti sahəsi 4300 kvadratmetrə yaxın olan yeni məktəb binasının inşaat işlərinə 2021-ci ilin oktyabrında başlanılıb. Məktəb 960 şagird yerlikdir. Burada şagirdlərin təlim-tərbiyəsi ilə yüksək səviyyədə məşğul olmaq üçün hərtərəfli şərait yaradılacaq. Ölkəmizin mədəniyyət paytaxtı Şuşa Azərbaycanın ictimai-siyasi həyatında da özünəməxsus rol oynayıb. Azərbaycanın ictimai-siyasi fikir tarixində mühüm yer tutan bir sıra görkəmli şəxsiyyətlər, maarifçi ziyalılar məhz Şuşada doğulub boya-başa çatıblar. Həmin şəxslər Şuşada fəaliyyət göstərən, dövrün qabaqcıl təhsil müəssisələrinin yetirmələri idilər. Belə ki, Şuşada fəaliyyət göstərən xəttatlıq, teatr, musiqi, vokal, eləcə də ilk qızlar, rus-tatar məktəbləri, qızlar seminariyası, realnı məktəb yerli əhalinin intellektual səviyyəsini, dünyagörüşünü inkişaf etdirməyə, şəhərin ziyalı səviyyəsini qoruyub saxlamağa imkan verdi. Şuşada 1 saylı tam orta məktəbin inşası məhz bu baxımdan xüsusi əhəmiyyət daşıyır. Belə ki, məktəbin inşası bu qədim şəhərin təhsil mərkəzi şöhrətinin qaytarılması missiyasına xidmət edən növbəti addımdır.. Şuşada vaxtilə keçirilən Vaqif Poeziya Günləri və "Xarı bülbül" festivalı bərpa olundu. Xurşidbanu Natəvanın, Üzeyir Hacıbəylinin, Bülbülün ermənilər tərəfindən güllələnmiş büstləri Şuşada yenidən əvvəlki yerlərinə qoyuldu.

Qədim tarixi olan Şuşa tarixin müxtəlif dönəmlərində "Kiçik Paris", "Qafqazın sənət məbədi", "Azərbaycan musiqisinin beşiyi" və "Şərqin konservatoriyası" adlandırılmışdır. Azərbaycanın ictimai-siyasi həyatında mühüm xidmətləri olan bir sıra görkəmli xadimlərin vətəni, eləcə də tarixi mədəniyyət mərkəzi olan Şuşa qədim Xocalı-Gədəbəy mədəniyyətinin əhatə dairəsinə daxil olan ən qədim yaşayış yerlərindən birində yaranıb və daimi insan məskəninə çevrilib. Mənbələrə istinadən deyə bilərik ki, Şuşa ətrafındakı qədim yaşayış yerləri, o cümlədən məşhur Cıdır düzündəki Şuşa mağarası bu ərazinin Azərbaycanda ən qədim insan düşərgələrindən biri olduğunu sübut edir. İngilis səyyah və alimləri C.Morye və R.Burter Şuşanın qədimliyi ilə bağlı dəyərli mülahizələr ifadə etmişlər. Belə ki, C.Moryenin fikrincə, Şuşa hələ eradan əvvəl insan məskəni olmuşdur. R.Burter isə yazırdı ki, Şuşada Qafqazın başqa yerlərində olmayan Avropa şəhərlərindəki kimi daş binalar, daş döşəməli geniş küçələr, qədim Roma hamamlarını xatırladan gözəl hamam qalıqları vardır. Bütün bunlar Şuşanın hələ çox qədimdən mövcud olması haqqında fikir söyləməyə əsas verir. Xalq əfsanəsinə görə, isə bu yerlərin havası büllur kimi saf və şəfalı olduğu üçün onu "Şuşa" (şüşə) adlandırmışlar. Şuşada "Bazarbaşı" deyilən yerdən "Şeytanbazara" qədər uzanan üstüörtülü ticarət mərkəzi və şəhərin əsas küçəsi "Rastabazar" adlandırılırdı. Orta əsr Şərq üslubunda zövqlə tikilən bu bazar həm də şəhərə xüsusi yaraşıq verirdi. Şuşanın ticarət mərkəzinin bənzərsiz görkəmi onun magistralına bitişik iri bazar meydanı ilə tamamlanırdı. Şəhərdə 17 məhəllə var idi ki, onların hər birinin məscidi, bulağı və hamamı mövcud idi.

## "ŞUŞA İŞĞALDAN AZAD EDİLƏNDƏN SONRA DÜŞMƏNİN BELİ QIRILDI"

Ermənilərin Azərbaycana qarşı başladığı hərbi təcavüz nəticəsində 1992-ci il mayın 8-də Şuşa şəhəri işğal edildi və şəhərdə xalqımızın tarixi-mədəni irsinin məhv edilməsi siyasəti həyata keçirildi. Şuşanın işğalı nəticəsində azərbaycanlıların tarixi izlərini silmək məqsədilə vandallar 600-ə yaxın tarixi memarlıq abidəsini, o cümlədən Pənahəli xanın sarayını, Yuxarı Gövhər ağa məscidini, Aşağı Gövhər ağa məscidi, Xurşidbanu Natəvanın evini, Molla Pənah Vaqifin məqbərəsini yerlə-yeksan etmiş, 7 məktəbəqədər uşaq müəssisəsini, 22 ümumtəhsil məktəbini, mədəni-maarif, kənd təsərrüfatı texnikumlarını, orta ixtisas musiqi məktəbini, 8 mədəniyyət evinin, 22 klubu, 31 kitabxananı, 2 kinoteatrı, 8 muzeyi, o cümlədən Şuşa Tarix Muzeyi, Azərbaycan Xalça Muzeyinin filialı və xalq tətbiqi sənəti muzeyi, Qarabağ dövlət tarix muzeyi, turist bazasını, Qafqazda yeganə Şərq musiqi alətləri fabrikini dağıtmış, buradakı nadir sənət incilərini talamış və məhv ediblər. Şəhərin tarixi muzeyinin 5 minədək əşyası, Azərbaycan Xalçası və Xalq Tətbiqi Sənəti Dövlət muzeyi Şuşa filialı, Dövlət Qarabağ Tarixi muzeyinin 1000-dək əşyası, peşəkar Azərbaycan musiqisinin banisi, bəstəkar Üzeyir Hacıbəyovun, müğənni Bülbülün, musiqiçi və rəssam Mir Möhsün Nəvvabın xatirə muzeylərinin fondları qarət edilib.

Şuşanın abidələr şəhəri olduğunu söyləyən Ümummilli Lider Heydər Əliyev onun Azərbaycan üçün müstəsna əhəmiyyətini yüksək qiymətləndirərək deyirdi: "Şuşasız Qarabağ, Qarabağsız isə Azərbaycan yoxdur". Ümummilli Lider Heydər Əliyevin siyasi kursunu uğurla davam etdirərək Azərbaycanın milli və dövlətçilik maraqlarını daim üstün tutan Prezident, Ali Baş Komandan İlham Əliyev 2020-ci ilin noyabrın 8-də Şəhidlər xiyabanından xalqa etdiyi müraciətdə Şuşa şəhərinin azad edilməsi müjdəsini verdi. Ordumuzun qətiyyətli mübarizəsi ilə tarixi ədalət bərpa edildi. Qısa bir zamanda şəhərə, onun tarixi-mədəni irsinə və təbiətinə vurulmuş zərərin təxirəsalınmadan inventarizasiyası aparıldı, bərpa işlərinə başlanıldı. Dövlət başçısının Sərəncamı ilə Şuşa şəhərinin tarixi görkəminin bərpası, əvvəlki şöhrətinin özünə qaytarılması və ənənəvi doğlun mədəni həyatına qovuşması, eləcə də Azərbaycanın çoxəsrlik zəngin mədəniyyətinin, memarlıq və şəhərsalma sənətinin parlaq incisi kimi beynəlxalq aləmdə təbliği məqsədilə Şuşa şəhəri Azərbaycanın mədəniyyət paytaxtı elan edildi. Tarixi-mədəni əhəmiyyəti və Azərbaycan xalqı üçün müstəsna mənəvi dəyərə malik olması Şuşaya xüsusi qayğı və həssaslıqla yanaşılmasını zəruri edir.

"Şanlı müharibəmizə Şuşa şəhərində yekun vuruldu. Noyabrın 8-də Şuşa şəhərinin azad edilməsi tarixi nailiyyətimizdir. Şuşa işğal altına düşmüş birinci şəhərimiz idi və işğaldan azad edilən sonuncu şəhər oldu. Şuşa işğaldan azad ediləndən sonra düşmənin beli qırıldı, düşmən təslim olmağa məcbur qaldı. Şuşanın azad edilməsi tarixi hadisədir. Bizim Ordumuz, qəhrəman övladlarımız dağlardan, dərələrdən, meşələrdən, cığırlardan keçərək, sıldırım qayaları qət edərək, qayalara dırmaşa-dırmaşa Şuşaya qalxaraq orada əlbəyaxa döyüşdə düşməni məhv etdi, Azərbaycan bayrağını Şuşada qaldırdı" - deyə Cənab Prezident bildirib. Bu gün Şuşa dirçəlir, yeni işkişaf yoluna qədəm qoyub.

***Nəzakət ƏLƏDDİNQIZI***

Təhlil

# Rusiya Ermənistanın ağır xəyanətini bağışlayacaqmı?

*Sergey Markov: "Ermənistandan rusiyalı hərbçilərinin bu ərazilərdən qovulması addımını gözləmək olar və indi baş verənlər şübhəsiz ki, Gümrüdəki 102-ci bazadan imtina etmək planının tərkib hissəsidir"*



Paris Azərbaycanla Ermənistan sərhədində (delimitasiya və demarkasiya olunmamış-R.R.) beynəlxalq müşahidəçilərin yerləşdirilməsi ideyasını dəstəklədiyini bəyan edir. S?A xəbər verir ki, bu barədə Fransanın İrəvandakı səfiri Ann Luyo bildirib. Fransalı diplomat bildirib ki, artıq bu istiqamətdə işlər aparılır, Fransa və ABŞ müvafiq məsələ ilə bağlı fəal iş aparırlar. "Biz bu ideyanı dəstəkləyirik, bu istiqamətdə işləyirik və digər ölkələrlə də danışıqlar aparırıq", deyə Ann Luyo bildirib.

### Markova görə, fransalı və amerikalı müşahidəçilərin Ermənistana yerləşmələri ssenarisi günü-gündən daha real görünməyə başlayıb

Mövzu ilə bağlı Rusiyalı politoloq, Siyasi araşdırmalar institunun direktoru Sergey Markov "Vestnik Kavkaza"ya münasibətini açıqlayıb. Onun sözlərinə görə, fransalı və amerikalı müşahidəçilərin Ermənistana yerləşmələri ssenarisi günü-gündən daha real görünməyə başlayıb.

"Düşünürəm ki, bu tamamilə realdır. Əbəs deyil ki, Nikol Paşinyan fransızlarla və amerikalılarla razılaşmalar aparır ki, onların ordu birləşmələri, həmçinin NATO-dakı müttəfiqləri Ermənistanın ərazisindəki sərhəddə yerləşsinlər", deyə Markov bildirib. Onun sözlərinə görə, bunun üçün Ermənistan Rusiya ilə münasibətlərini kəskin şəkildə aşağı səviyyəyə salmalıdır və hələ ki, İrəvan buna doğru gedir. "Ermənistandan rusiyalı hərbçilərinin bu ərazilərdən qovulması addımını gözləmək olar və indi baş verənlər şübhəsiz ki, Gümrüdəki 102-ci bazadan imtina etmək planının tərkib hissəsidir", deyə rusiyalı politoloq hesab edir.

SƏS-AKTUAL

### Bəs Rusiyanın cavabı necə olmalıdır?

Qeyd: Markovun fikirlərindən isə yalnız bir nəticəni hasil etmək olar. Rusiya mövcud ağır vəziyyətində uzun illər himayəsi altında saxladığı Ermənistanın ona etdiyi xəyanətini əsla bağışlamayacaq. Əslində isə Rusiya tarixi aspektlərdən də nəticə çıxararaq qoynunda necə zəhərli ilan bəslədiyinin fərqinə varmalıydı. Təəssüf ki, Moskva İrəvanın məqsədlərini hələ indi-indi anlamağa başlayıb və yenə də gec olmadan özünün cavab zərbələrini endirməkdən çəkinməməlidir.

***Rövşən RƏSULOV***

# Pensiyaların artımı hansı şəxslərə şamil ediləcək?



***Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən hazırlanan "Əmək pensiyaları haqqında" Qanununa dəyişiklik layihəsinə əsasən 2023-cü ilin yanvarın 1-dən bütün növ pensiyaların indeksləşdiriləràk artırılması mexanizmi tətbiq ediləcək. Bəs pensiyaların artımı hansı şəxslərə şamil ediləcək? Nə qədər artım nəzərdə tutulub?***

SİA-nın sorğusuna cavab olaraq ƏƏSMN Aparatının Sosial sığorta və pensiya siyasəti şöbəsinin Pensiya siyasəti sektorunun müdiri Aynurə Zamanova bildirib ki, xüsusi şərtlərlə pensiya alan şəxslərin aylıq pensiyalarına 2022-ci il üzrə ödənilən 10% maddi yardım onların pensiyalarının tərkibinə daxil edildikdən sonra pensiya məbləğləri artacaqdır: "Məsələn: hərbçi kimi 2000 manat pensiyasına əlavə alan şəxsin pensiyası 01.01.2023-cü ildən 2200 manat olacaq.

Vahid indeksasiya tətbiq edilərsə xüsusi şərtlərlə pensiyaya çıxan şəxslərin pensiyaları hər il mütləq artacaqdır. İndeksasiya bütün məbləğə - həm qulluq əlavəsinə, həm də sığorta hissəsinə şamil ediləcək. Hazırda isə bu mexanizmlə artım yalnız ümumi əsaslarla pensiyalarda baş verir. Məsələn, indeksasiya faizi məsələn 14 faiz olarsa, 01.01.2023-cü ildən yuxarıda qeyd olunan hərbçinin 2200 manat pensiya məbləği 308 manat artaraq 2508 manat (2200 + 14%) təşkil edəcək.

Dövlət qulluqçusu, hərbi qulluqçu və s. şəxslər pensiya təyin edildikdən sonra 6 il və daha çox işlədikdə və ya işdən çıxdıqda topladıqları istifadə olunmamış kapitala əsasən pensiyalarının ümumi məbləği yenidən hesablanaraq artırılacaq. Belə ki, hazırda isə bu şəxslərin pensiyalarının sığorta hissəsində artım olduqda həmin artım qədər qulluq əlavəsi azaldığından pensiyanın ümumi məbləği dəyişmir. Bu da pensiyaçıların maddi vəziyyətinin yaxşılaşmasına və məmnunluğuna səbəb olacaqdır".

***Abutel İlhamqızı***

## Medianın İnkişafı Agentliyində Mətbuat Şurasının sədri ilə görüş keçirilib



Sentyabrın 30-da Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyində Mətbuat Şurasının sədri Rəşad Məcidlə görüş keçirilib. SİA-nın verdiyi məlumata görə, görüşdə media sahəsində qarşılıqlı əməkdaşlığın daha da genişləndirilməsi və təkmilləşdirilməsi ilə bağlı fikir mübadiləsi aparılıb.

Agentliyin İcraçı direktoru Əhməd İsmayılov medianın inkişafı istiqamətində atılan ardıcıl addımlardan, dövlətin bu sektora sistemli dəstəyindən, jurnalistlərin peşəkarlığının artırılması, beynəlxalq təcrübənin mənimsənilməsi sahəsində görülən işlərdən danışaraq Mətbuat Şurası ilə birgə layihələrin icrasında maraqlı olduğunu vurğulayıb.

Mətbuat Şurasının sədri Rəşad Məcid bildirib ki, medianın inkişafı ilə bağlı görülən işlər Azərbaycan mətbuatının, ölkəmizdə jurnalist peşəsinin gələcəyinə olan ümidləri əhəmiyyətli dərəcədə artırır. Bu istiqamətdə həyata keçirilən tədbirləri yüksək qiymətləndirən Rəşad Məcid birgə əməkdaşlığın faydalı olacağına əminliyini ifadə edib. Görüşdə gələcək perspektivlər və səmərəli qarşılıqlı əməkdaşlıq əlaqələri müzakirə olunub.

## "44 gündə ən böyük amal Qarabağın incisi Şuşanın azad olunması idi"




***"Cənab Prezident İlham Əliyev və birinci vitse-prezident Mehriban Əliyevanın Şuşaya növbəti səfəri baş tutub. Ötən səfərdə bir sıra obyektlərin təməlqoyma mərasimi olmuşdu, indi isə həmin yerlərdəki tikinti işləriylə yerindəcə tanışlıq olub. Qarabağ sürətli şəkildə birbaşa ölkə başçısının nəzarətilə bərpa olunur". Bu sözləri SİA-ya açıqlamasında deputat Müşfiq Cəfərov deyib.***

Onun sözlərinə görə, cənab Prezident Şuşada Mehmandarovların malikanə kompleksində aparılan bərpa işlərinin gedişi ilə tanış olub: "Qeyd edim ki, malikanənin təmirinə Heydər Əliyev Fondu tərəfindən 2021-ci ilin oktyabrından başlanıb. Bu günə kimi bir çox işlər görülən bu yaşayış kompleksi demək olar ki, tamamilə orjinallığına və qədimilliyinə sadiq qalaraq bərpa olunur.

28 sentyabr günü ölkə başçısının Qarabağa olan səfərinin məhz Füzulidən başlaması, 44 günlük müharibə zamanı ilk şəhidlərimizin adına abidənin ucaldılması müstəqilliyimiz, ərazi bütövlüyümüz uğrunda canından keçən qəhrəman oğullarımıza hörmət və ehtiramın nümunəsidir. Azərbaycan dövləti daim şəhidlərinin xatirəsini uca tutub. 44 gündə ən böyük amal Qarabağın incisi Şuşanın azad olunması idi. Məhz Qaraxanbəyli kəndindən Şuşaya gedən yol başlamışdı. Buna görə də səfər Qaraxanbəylidən, ilk azad olunan doğma torpaqlardan başladı. Bu gün Şuşada bərpa olunan hər qarış torpaq şəhidlərimizin ruhuna ithafdır. Bildiyiniz kimi, Şuşanın necə böyük qəhrəmanlıqla azad olunması xarici mediada da uzun müddət müzakirələrə səbəb oldu. Həmin vaxt Azərbaycan ordusu misli görünməmiş qəhrəmanlıq göstərdi".

***Ayşən Vəli***

# “Möhtəşəm zəfər tariximizi və dövlətçilik irsimizi daha da şərəfləndirdi”

***Bildiyimiz kimi, 44 günlük Vətən müharibəsi böyük qələbə ilə başa çatdı. Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə rəşadətli Azərbaycan Ordusu böyük şücaət və yüksək döyüş hazırlığı göstərərək torpaqlarımızı işğaldan, düşmən tapdağından azad etdi. Tarix yazan qəhrəman Ordumuz, əsgər və zabitlərimiz Azərbaycanın haqq uğrunda mübarizə aparmaq əzmini, əsl döyüş ruhunu bütün dünyaya nümayiş etdirdi. SİA mövzu ilə bağlı təşkilat sədrlərinin fikirlərini öyrənib.***





**Azərbaycan Gənclər Təşkilatları Milli Şurasının (NAYORA-nın) sədri Azər Əliyev:** ”Azərbaycanın əzəli torpaqlarının işğaldan azad edilməsi milli və müasir tariximizin ən şanlı səhifəsidir. Mən əminliklə deyə bilərəm ki, bu şanlı tariximizin yazılmasında Azərbaycan gənclərinin rolu danılmazdır, hansı ki, o gənclər 30 ildir həsrətində olduğumuz ən böyük arzumuzu gerçəkləşdirdi. Şübhəsiz ki, gənclərimiz hər zaman dövlətçilik və millətçilik ənənələrinə, milli-mənəvi dəyərlərimizə sahib çıxmaqları ilə xüsusilə seçiliblər. 44 günlük Vətən Müharibəsində gənclərimizin bir addım belə geriyə addım atmayaraq misilsiz qəhrəmanlıq tarixini yazmaqları bunu bir daha sübut etdi. Gənclərə vətənpərvərlik hissinin aşılanması, onların vətənpərvər ruhda yetişdirilməsi istiqamətində qəbul olunan qərarlar və icra edilən fəaliyyətlərin əhəmiyyətli rolu vardır.

Qeyd edim ki, ölkə əhalisinin 22,1 faizini təşkil edən gənclərə qayğı daim dövlət siyasətinin mühüm tərkib hissəsi olaraq aktuallığını saxlayır və əsası Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulmuş dövlət gənclər siyasəti, bu gün Cənab Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Müstəqillik əldə olunandan sonra ”Gənclər siyasəti haqqında” Azərbaycan Respublikasının Qanunu qəbul edilmiş, 2005, 2011 və 2017-ci illərdə ”Azərbaycan gəncliyi Dövlət Proqram”ları, 2015-ci ildə isə ”2015-2025-ci illərdə Azərbaycan gənclərinin İnkişaf Strategiyası” qəbul edilmiş və gənclərin inkişafına öz töhfəsini vermişdir. Həmin siyasətin və qəbul edilən proqramların nəticəsidir ki, gənclərimiz vətənpərvər, məqsədyönümlü, mərd yetişir, həyatın müxtəlif sahələrində özlərini sübut edir, qalibiyyətləri ilə Azərbaycanın adını uca edirlər.

Buna misal kimi yenə Vətən Müharibəsini göstərə bilərəm ki, həmin dövrdə gənclərimiz yalnız ön cəbhədə deyil, həm də arxa cəbhədə informasiya mübarizəsində qalib gəldilər. Belə ki, 44 gün ərzində gənclər və gənclər təşkilatları müxtəlif dillərdə təşviqat kampaniyaları təşkil edərək bəyanatları beynəlxalq təşkilatlara ünvanlayır, sosial şəbəkələr üzərindən postlar paylaşıb, müxtəlif heştəqlər istifadə edərək dünya trendinə gerçəklərin çatdırılması üçün çalışırdı.

Qələbəmiz bir daha sübut etdi ki, geri aldığımız torpaqlar bizim əzəli və əbədi torpaqlarımızdır. Bu gün biz gənclər daha məsuliyyətli olmalı, şanlı tariximizi əbədi yaşatmalı və bu qələbəni bizə yaşadan Şəhidlərimizin xatirələrini daim əziz tutmalıyıq”.



**“İrəli” İctimai Birliyinin sədri Şahin Rəhmanlı:** ”Bu gün biz doğma vətənimizdə, müstəqil Azərbaycanımızda şəhidlərimizi Anım Günündə yad edirik. İndi Vətənimizə xidmət etmiş, canını və qanını fəda etmiş, döyüş yoldaşına gövdəsini sipər etmiş böyük qəhrəmanlar haqqında danışmaq böyük məsuliyyətdir, qürurdur! İnanıram ki, bu yüksək həssas və şərəfli günü qeyd edən hər kəs üzərində azad və sərbəst şəkildə hərəkət etdiyi bu torpaqların necə ”Vətənə” çevrilməsi haqqında düşünür. 27 sentyabr 2022-ci ildə, Vətən müharibəsindən 2 il sonra Azərbaycan əsgəri Şuşada, Gövhər ağa məscidinin pilləkənlərində dayanaraq o məşhur ”Qarabağ Azərbaycandır!” sözünü söyləyir.

Bütün həmvətənlərimizin, şəhidlərimizin və ordumuzun səsi birlikdə o nidanı deyir. Başqa yol yoxdur. Döyüş meydanlarından şəhid məzarına qədər uzanan bu şərəfli yolun hənirtisi gözəl vətənimizin hər yerindən daha yaxşı duyulur. O hənirti ki, xalqımızı dəmir yumruq kimi birləşdirib. Biz azərbaycançılıq ənənələrinə sadiq, vahid xalq anlayışına uyğun yaşamağa çalışan, birliyi bacaran bir millətik. Bu günü diqqətlə dinləsək, birliyin vacibliyini xatırladan Vətən müharibəsinin mənəvi yükünü bir daha anlamış olarıq. Xüsusilə, Anım Günündə bir daha xatırlamış oluruq ki, Vətənimizə sadiq bir xalq olaraq şəhidlərimizin əmanətinə sahib çıxmaq, onu qorumaq və hörmət etmək bizim borcumuzdur.

Bu Anım Günündə Vətənimizi müdafiə etmək üçün qəhrəmancasına döyüşmüş və şəhid olmuş əsgər və zabitlərimizi yad etmək üçün onların xidmətlərinin hər birimiz və hamımız üçün, müstəqil Azərbaycan üçün olduğunu xatırlamaqdan daha yaxşı bir yol düşünə bilmirəm. İndi gənclərimiz həm də şəhidlərimizin əmanətlərini - onların ailə üzvlərini unutmamalı, hər zaman dəstək olmalı və yardım üçün hazır olmalıdır.”

**”Vətəndaş Cəmiyyətində Debat” İctimai Birliyinin sədri Ülviyyə Axundova:** ”Vətən sevgisi, 44 günlük Vətən müharibəsi zamanı şahidi olduğumuz



Vətənin hər şeydən üstün tutulması Azərbaycan gəncləri üçün əsas olan dəyərin nə olduğunu nümayiş etdirdi.

30 il ərzində düşmən işğalına məruz qalan torpaqlarımızın azadlığı, ərazi bütövlüyümüzün bərpası ilə nəticələnən Vətən müharibəsi Azərbaycan xalqının milli həmrəyliyinin, birliyinin təntənəsi, Qarabağ zəfəri isə ölkənizin günü-gündən inkişafının ən gözəl nümunələrindəndir.

Vəzifəsindən, sosial statusundan, milli-etnik və dini mənsubiyyətindən asılı olmayaraq hər bir vətəndaş, böyükdən kiçiyə qədər hər bir insan bu müqəddəs savaşda Ali Baş Komandan İlham Əliyevin ətrafında bir yumruq kimi birləşdi və tarixi ədaləti bərpa etdi.

Vətən müharibəsində ölkəmizin qələbəsi bir neçə tərəfdən öz möhtəşəmliyi ilə tarixi əhəmiyyət daşıyır. Əsas məsələlərdən biri odur ki, vaxtilə işğal nəticəsində torpaqlarını tərk edən həmvətənlərimiz artıq məcburi köçkün deyillər. Bu, həqiqətdir ki, yurd ağrısı ilə yaşayan köçkünlərimiz hər zaman bu ifadədən xilas olmaq istəyiblər və müzəffər Ali Baş Komandan İlham Əliyev onların bu arzusunun həyata keçməsini təmin etdi. Qələbənin digər mühüm tərəfi ondan ibarətdir ki, bütün dünya Azərbaycanın gücünə və günü-gündən artan nüfuzuna şahidlik etdi. Prezident İlham Əliyevin şərtlərini qəbul edərək məğlubiyyət aktına imza atan baş nazir N.Paşinyan bununla da Ermənistanın məğlubiyyətini qəbul etdi. Bu qələbənin əsas mühüm tərəfi 44 gün ərzində Azərbaycanın diplomatik arenada da gücünü nümayiş etdirməsi idi. Cənab Prezidentin yüksək qətiyyəti, güclü arqumentlər və usta natiqliklə olan çıxışları, hər kəsin həyəcan və sevinc hissi ilə gözlədiyi xalqa müraciətləri və beynəlxalq təzyiqlərə sinə gərməsi zəfərimizi qaçınılmaz etdi.

Möhtəşəm zəfər tariximizi, dövlətçilik irsimizi daha da şərəfləndirdi. Bu qələbə dövlətimizin qüdrətini bütün dünyaya nümayiş etdirdi. Xalqımız öz haqqı uğrunda mübarizə aparmaq əzmini nümayiş etdirdi, məğlubiyyət damğasını üzərindən götürdü. Bu savaşın nəticəsində dünya bizi həm də qalib xalq kimi tanıdı.

Müharibə itkisiz olmur, həm də torpaq uğrunda ölən varsa, vətəndir. 44 günlük Vətən müharibəsində oğullarımız ölümün gözünə dik baxdılar, şəhadət zirvəsinə ucaldılar. İşğaldan azad olunmuş vətən torpaqlarımız rəşadətli Azərbaycan Ordusunun şücaəti, igidliyi, şəhidlərimizin qanı ilə daha da müqəddəsləşdi.

Azərbaycan xalqı hər zaman qəhrəman şəhidlərimizin xatirəsini uca tutacaq, onları hörmət, qürur və ehtiramla anacaqdır.

Əsası Ulu öndər Heydər Əliyev tərəfindən qoyulan, Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilən Azərbaycan gənclər siyasəti gənc nəslin inkişafı və bilik və bacarıqlarını realizə etmələri üçün şərait yaratmaqla yanaşı, onları vətənpərvər ruhda formalaşdırdı. Bu baxımdan 44 günlük Vətən müharibəsi Azərbaycan gəncinin vətənpərvərliyini, əzmi hər kəsdə heyranlıq yaratdı. Bu gün Azərbaycan gəncləri qalib ölkənin gəncləridir və Qarabağ zəfəri tariximizin ən şanlı səhifəsi, tarixi ədaləti bərpa etdiyimiz qürur mənbəyimizdir”.




**”Gənclərin Töhfəsi” İctimai Birliyinin Baş Katibi Taleh Mansurov:** ”Vətən müharibəsi Prezident İlham Əliyevin də dediyi kimi Azərbaycanın şanlı zəfər tarixidir. Biz Gənclərin Vətən müharibəsində Töhfəsi gənclər təşkilatı olaraq istər cəbhəyə dəstək, istərsə də informasiya müharibəsində var gücümüzlə çalışmaqdır. Bu bizim həm vətəndaşlıq borcumuz, həm də bu vətənin gənclər təşkilatı olaraq vəzifəmiz idi. Bundan sonra Vətənimizin gəncliyinin inkişafı, Vətənpərvər gəncliyin formalaşması, Vətən müharibəsində canından qanından keçən qəhrəman vətən övladlarının xatirəsinin yaşadılması üçün layihələrimizə davam edəcəyik.

Bununla yanaşı Ali Baş Komandanın da dediyi kimi informasiya müharibəsi bitməyib. Vətən müharibəsində olduğu kimi indi də aktiv şəkildə fəaliyyətimizi davam etdiririk. Vətən müharibəsi Azərbaycanın unudulmaz Şanlı Zəfər Tarixidir. Bu tarix biz və bizdən sonrakı gənc nəsillərində yaddaşında əbədi yaşayacaq. Şəhidlər Ölməz, Vətən Bölünməz!”.

***Ayşən Vəli***

SORĞU

# YAP Nərimanov rayon təşkilatında "Qüvvət elmdədir" mövzusunda tədbir keçirilib

***Sentyabrın 30-da Yeni Azərbaycan Partiyası (YAP) Mərkəzi Aparatının, Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Dövlət Komissiyasının daimi fəaliyyət göstərən İşçi Qrupunun və "Azərbaycan Televiziyası və Radio Verilişləri" Qapalı Səhmdar Cəmiyyətinin 2022-ci ilə dair imzalanmış birgə Tədbirlər Planına uyğun olaraq YAP Mərkəzi Aparatının və partiyanın Nərimanov rayon təşkilatının birgə təşəbbüsü ilə "Qüvvət elmdədir" mövzusunda maarifləndirici tədbir keçirilib.***




YAP Nərimanov rayon təşkilatında keçirilən tədbiri giriş sözü ilə açan rayon təşkilatının sədri Samir Vəliyev bildirib ki, narkomaniya ilə mübarizə sağlam cəmiyyətin formalaşması baxımından əsas məqsəd və vəzifələrdəndir. Cəmiyyətdə "ağ ölüm" kimi tanınan narkomaniya bəlası insan həyatında sağalmaz fəsadlar yaradır. Onun sözlərinə görə, Azərbaycanda narkomaniyaya qarşı sistemli mübarizə aparılır. Bu tədbir də dövlətimizin başçısının təsdiq etdiyi "Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə və narkomanlığa qarşı mübarizəyə dair 2019-2024-cü illər üçün Dövlət Proqramı"nın icrasına uyğun olaraq keçirilir.

Çıxış edən YAP Mərkəzi Aparatının Gender siyasəti və gənclərlə iş şöbəsi müdirinin müavini Zəkiyyə Musayeva bildirib ki, narkomaniya ilə mübarizə və onun profilaktikası mühüm məsələ olmaqla yanaşı, sağlam gəncliyin yetişməsində ən vacib amillərdən biridir. Onun sözlərinə görə, gənclərin bu kimi vərdişlərdən uzaq olması üçün maarifləndirmə tədbirləri daha da gücləndirilməlidir. Elmli, bilikli gənclərin digər həmyaşıdlarının zərərli vərdişlərdən uzaqlaşmasında oynaya biləcəyi rol danılmazdır.

Tədbirdə, həmçinin Nərimanov rayonu İcra Hakimiyyəti başçısının İctimai-siyasi və humanitar məsələlər üzrə müavini İradə Mahmudova, Səhiyyə Nazirliyi Respublika Narkoloji Mərkəzinin həkim-narkoloqu Rövşən Kərimli, "Azərbaycan Televiziya və Radio Verilişləri" Qapalı Səhmdar Cəmiyyətinin nümayəndəsi Şahin Verdiyev, Nərimanov rayon Polis İdarəsinin cinayət-axtarış şöbəsinin rəisi, polkovnik-leytenant Vüqar Cavadzadə, ADA Universitetinin 1-ci kurs tələbəsi, Vətən müharibəsi qazisi Elşən Mustafayevin qızı Ayan Mustafayeva çıxış edərək narkomaniyanın fəsadlarından bəhs edib, bu bəla ilə mübarizənin əhəmiyyətindən danışıblar. Qeyd olunub ki, yeniyetmə və gənclərimizin təlim-tərbiyəsi, elm və təhsilə marağının artırılması da onların zərərli vərdişlərdən uzaqlaşmalarında vacib amildir.

Sonra Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Dövlət Komissiyasının İşçi Qrupunun əməkdaşı Şahin İsmayılov slaydlar vasitəsilə məlumatlar təqdim edib. O qeyd edib ki, dövlət tərəfindən bu sahədə zəruri tədbirlər həyata keçirilir.

# Bitdimi?..

***Rusiya prezidenti Vladimir Putin Rusiya Federasiyası - Donetsk Xalq Respublikası (DXR), Luqansk Xalq Respublikası (LXR), Xerson və Zaporojye vilayətlərinin tərkibinə daxil olmaq haqqında sazişlər imzalayıb. İmzalanma mərasimini "Rossiya 24" telekanalı yayımlayıb. Onunla birlikdə LPR və DXR rəhbərləri Leonid Paseçnik və Denis Puşilin, eləcə də Xerson və Zaporojye vilayətlərinin rəhbərləri Vladimir Saldo və Yevgeni Balitski öz imzalarını atıblar. "İstəyirəm ki, Kiyev hakimiyyəti və onların Qərbdəki əsl ağaları məni eşitsinlər ki, hamı bunu xatırlasın - Luqansk və Donetsk, Xerson və Zaporojyedə yaşayanlar əbədi olaraq bizim vətəndaşlarımıza çevrilsin", - Putin bildirib.***



*Kremldə yeni ərazilərin Rusiyaya birləşdirilməsi haqqında saziş imzalanıb*

SİA-nın rus saytlarından əldə etdiyi məlumata görə, Rusiya lideri Kiyev hakimiyyətini "onun 2014-cü ildə başlatdığı müharibəni" dərhal dayandırmağa və danışıqlar masasına qayıtmağa çağırıb. "Biz buna hazırıq, bu dəfələrlə deyilib. Amma xalqın seçimi Donetsk, Luqansk, Zaporojye və Xersondur. İş bitdi, Rusiya ona xəyanət etməyəcək", - deyə prezident əlavə edib.

Beləliklə, sazişlər imzalandıqdan sonra onların mətni Rusiyanın əsas qanunlarına uyğunluğunu müəyyən etmək üçün Konstitusiya Məhkəməsinə göndəriləcək, bundan sonra onların əsasında yeni ərazilərin daxil edilməsi haqqında qanun layihəsi hazırlayacaqlar. Onu Rusiya parlamentinin yuxarı və aşağı palataları ratifikasiya etməli olacaq, bundan sonra prezident qanunu imzalayacaq və sənəd qüvvəyə minəcək.

İmzalanmış müqavilələr Rusiya daxilində yeni qurumların yaradılmasını və LPR, DXR, Xerson və Zaporojye vilayətlərinin sərhədlərinin statusunun dəyişdirilməsini nəzərdə tutur - onların sərhədləri Rusiya Federasiyasının dövlət sərhədlərinə çevrilir. Müqavilələrin qüvvəyə mindiyi gündən müəyyən müddət ərzində keçmiş vətəndaşlığını saxlamaq arzusunu bəyan edən və ya vətəndaşlığı olmayan şəxslər istisna olmaqla, sadalanan regionların bütün sakinlərinin Rusiya vətəndaşı olacağı gözlənilir; üstəlik, yeni bölgələr Rusiyaya qəbul edilən andan onlar keçid dövrünə başlayacaqlar, bu müddət ərzində bu ərazilərdə iqtisadi, maliyyə və hüquqi sistemlər Rusiya ilə uyğunlaşdırılacaq.

***Ağasəf Babayev***





# Səfərbərlik və milli azlıqlar



***Ukraynada aparılan hərbi əməliyyatlarda (dünya ölkələri isə bunu böyük müharibə adlandırır) iştirak etmək üçün Rusiyada səfərbərlik elan olunduqdan sonra ötən bir həftə ərzində ölkədən qaçanların, müharibədə iştirak etməkdən yayınanların sayı yüz minlərlə ölçülür. Prezident Putinin "qismən səfərbərlik" elan etməsindən sonra ölkədən qaçan Rusiya vətəndaşlarının sayında kifayət qədər artım olub. O da məlumdur ki, qaçaqlar arasında ən imkanlı və savadlı şəxslər üstünlük təşkil edir.***

”Səfərbərlikdən gizlənən Rusiya vətəndaşlarının ABŞ-dan sığınacaq almaq üçün müraciət edə bilmələri üçün imkanlar yaradılıb”. Bunu Ağ Evin mətbuat katibi Karine Jan-Pyer deyib. ”Biz inanırıq ki, vətəndaşlığından asılı olmayaraq, onlar ABŞ-da sığınacaq üçün müraciət edə bilərlər və hər bir müraciətə ayrı-ayrılıqda baxılacaq”, deyə mətbuat katibi bildirib. Əlavə edib ki, ABŞ hakimiyyəti ”sığınacaq istəyən hər kəsi” salamlayır.

Rusiyada səfərbərlik sentyabrın 21-də elan edilib. O vaxtdan bəri minlərlə insan ölkəni tərk edib. Yalnız qonşu Qazaxıstan, Gürcüstan, Monqolustan və Finlandiya 200 minə yaxın rus qəbul edib. Bəzi Aİ ölkələri, xüsusən də Latviya və Çexiya səfərbərlikdən gizlənən ruslara viza verməyəcəklərini bildiriblər. Öz növbəsində Avropa Komissiyası bildirib ki, Avropa İttifaqı səfərbərlik kontekstində sığınacaq istəyən rusların ölkəyə giriş hüququna zəmanət verməlidir.

## Almaniya

Almaniya hakimiyyəti müəyyən şərtlər daxilində Rusiya ordusundan fərarilərə sığınacaq verməyə hazır olduqlarını bildirib. ”Bir qayda olaraq, ağır repressiyalarla təhdid edilən fərarilər Almaniyada beynəlxalq müdafiə alırlar. Putin rejiminə cəsarətlə qarşı çıxan və buna görə də özünü böyük təhlükə qarşısında qoyan hər kəs siyasi təqiblərə görə Almaniyadan sığınacaq ala bilər”, - daxili işlər naziri Nensi Feather bildirib.

Oxşar bəyanatı Almaniyanın insan haqları təşkilatı Pro Asyl verib və bütün Aİ ölkələrini səfərbərlikdən gizlənən ruslara sığınacaq verməyə çağırıb: ”Aİ qanunvericiliyinə görə, beynəlxalq hüququ pozan müharibədən yayınanların sığınacaq və müdafiə hüququ var. Bu mənada Almaniya və Avropa Rusiyanın təcavüzkar müharibəsindən qaçan insanların qeyri-bürokratik qəbulunu təşkil etməlidir”.

Almaniyanın ədliyyə naziri Marko Buşman tvitter hesabında yazıb ki, ”Putinin tutduğu yola nifrət edən və liberal demokratiyanı sevən” ruslar Almaniyada xoş qarşılanacaq. Almaniyada səfərbərlikdən gizlənən rusların qəbulu ilə bağlı hələlik rəsmi qərarlar qəbul edilməyib.

## Çexiya

Çexiyanın xarici işlər naziri Yan Lipavski bildirib ki, ölkə səfərbərlikdən gizlənən ruslara humanitar viza verməyəcək: ”Mən başa düşürəm ki, ruslar Putinin çıxılmaz qərarlarının gətirdiyi şeylərdən qaçırlar. Lakin öz dövlətinin qoyduğu öhdəliyi yerinə yetirmək istəmədiyi üçün ölkədən qaçanlar humanitar vizanın verilməsi şərtlərinə cavab vermir”.

Baş nazir Petr Fiala bildirib ki, Çexiya bu cür insanlarla digər sığınacaq axtaranlar kimi davranacaq: ”Onların müraciətlərinə standart prosedurun bir hissəsi kimi baxılacaq”.

## Latviya

Latviyanın xarici işlər naziri Edqars Rinkeviç Tvitter hesabında yazıb ki, ölkə rusiyalı qaçqınlara viza verməyəcək: ”Təhlükəsizliyə görə, Latviya səfərbərlikdən yayınmağa çalışan Rusiya vətəndaşlarına humanitar viza və ya hər hansı digər viza verməyəcək. Həmçinin, Latviya Şengen vizası olan rusların sərhədi keçməsinə qoyulan qadağanı ləğv etməyəcək”.

Oxşar fikri müdafiə naziri Artis Pabriks də bildirib. O, bəyan edib ki, Latviya sığınacaq üçün müraciətlərə baxarkən mümkün qədər mühafizəkar və ehtiyatlı olmalıdır: ”Bir tərəfdən, sığınacaq üçün müraciətlərə baxılmalı olan beynəlxalq normalar var. Digər tərəfdən, biz başa düşməliyik ki, rusların əksəriyyəti Putin rejiminə qarşı deyil və bizim dəyərlərimizin tərəfdarı deyil. Onların necə insanlar olduğu da məlum deyil, ona görə də ərazimizdə müxtəlif növ filtrasiya tələb oluna bilər”.

## Estoniya

Estoniyanın xarici işlər naziri Urmas Reinsalu səfərbərlikdən qaçan rusların ölkəyə buraxılmayacağını bildirib: ”Rusiyada vətəndaşlıq borcunu yerinə yetirməkdən imtina etmək və ya bunu etmək istəyi başqa ölkədə sığınacaq vermək üçün kifayət qədər əsas deyil”.



## Litva

Litva Xarici İşlər Nazirliyi bəyan edib ki, Vilnüs "onlar üçün müraciət edən bütün Rusiya vətəndaşlarına humanitar viza vermək məqsədi və ya imkanı yoxdur: "Litva milli təhlükəsizliyinə təhdidlərin qarşısını almaq və təqib olunan vətəndaş cəmiyyəti və müxalifət nümayəndələri üçün qapıları açıq qoymaq üçün bütün hallar nəzərə alınmaqla Rusiya vətəndaşlarının bəyanatlarına adi qaydada baxılacaq".

## Finlandiya

Xarici İşlər Nazirliyinin konsulluq xidmətinin rəhbəri Yussi Tanner bildirib ki, Finlandiya rusiyalı kişilərin Rusiyaya qayıtmayacağına inanmaq üçün əsas olarsa, onlara turist vizası verməyəcək. Onun sözlərinə görə, son vaxtlar belə bəyanatların sayı artıb. "Belə bəyanatlar var ki, insanlar Rusiyadan çıxmaq istəyirlər və oraya qayıtmaq fikrində deyillər. Bu cür müraciətlərlə bağlı qərar mənfi olacaq". Rəsmi vurğulayıb ki, səfərbərliyə məruz qalan insanların Rusiyadan qaçması Ukrayna üçün müsbət amil ola bilər, lakin viza qanunlarına hələ də riayət etmək lazımdır.

## Avropa Komissiyası

Avropa Komissiyasının sözçüsü Anita Hipper bildirib ki, Aİ səfərbərlik şəraitində sığınacaq istəyən rusların ölkəyə giriş hüququnu təmin etməlidir: "Aİ-yə səyahət edən və beynəlxalq müdafiə tələb edən insanlara gəldikdə, bu onlara təmin edilməlidir. Artıq Aİ-yə üzv dövlətlər bu insanlara humanitar vizaların verilməsi imkanlarını müzakirə edirlər. Sərhədi keçməyə gəlincə, bu qərarı konkret ölkələrin hakimiyyət orqanları fərdi qaydada və Avropa İttifaqının qanunlarına uyğun olaraq qəbul etməlidir".






Rusiya sakinləri səfərbərliyi elan edildikdən sonra etiraz aksiyaları keçirməyə başlayıblar. "Vesna" hərəkatı səfərbərliyə qarşı ümumrusiya etiraz aksiyası keçirməyə çağırıb. Aleksey Navalnının komandası da rusları etiraza çağırıb, "hər hansı formada etiraz" dəstəkləyəcəklərini vəd edib. "Əgər siz böyük işlər görməyə, o cümlədən hərbi komissarlığı yandırmağa hazırsınızsa, biz bunu dəstəkləyirik və müəyyən köməklik göstərməyə də hazırıq".

## Ekspertlər bunun sonda nə ilə nəticələnə biləcəyi haqqında

Qazaxıstan hakimiyyəti Rusiya vətəndaşlarının respublikaya kütləvi axını ilə bağlı Moskva ilə danışıqlar aparmaq niyyətindədir, Qazaxıstan prezidenti Kasım-Jomart Tokayev bildirib. Tokayevin sözlərinə görə, rusların əksəriyyəti "hazırkı ümidsiz vəziyyətə görə oranı tərk etmək məcburiyyətindədir".

Rusiya prezidenti Vladimir Putinin bu yaxınlarda elan etdiyi səfərbərlik Ukraynada müharibəyə getmək istəməyən insanların bir növ etirazı ilə qarşılanıb. Qazaxıstan Rusiya vətəndaşlarının getmək istədiyi istiqamətlərdən biridir. Onlar bundan başqa Gürcüstan, Ermənistan, Finlandiya, Monqolustan və digər ölkələrə də qaçırlar. Bu prosesə paralel olaraq Rusiyada minlərlə müharibə əleyhdarı etiraz aksiyalarına çıxıblar. Təkcə Dağıstanda son 24 saat ərzində mitinqlərdən sonra 90-a yaxın adam saxlanılıb. Həbslər polislə toqquşmalarla müşayiət olunub. Sentyabrın 21-dən bəri davam edən etiraz aksiyalarında artıq iki mindən çox insan saxlanılıb. Hüquq müdafiəçiləri hüquq-mühafizə orqanlarının əməkdaşlarının əsassız olaraq sərt hərəkətləri ilə bağlı çoxlu halları da qeyd edirlər.

Monqolustanın sabiq prezidenti Tsaxiaqiyn Elbeqdorj Ukraynaya qarşı müharibədə iştirak etmək istəməyən tuvanları, buryatları və kalmıkları Rusiyadan qaçmağa çağırıb. Onun videomüraciəti Dünya Monqol Federasiyasının YouTube kanalında dərc olunub.

Tsaxiaqiyn Elbeqdorj Ukraynaya dəstək olaraq sinəsindəki mavi və sarı lentlə Rusiya xalqına ingilis dilində müraciət edib. Onun sözlərinə görə, müxtəlif ölkələr Rusiya hakimiyyətinin müharibəyə göndərdiyi azsaylı millətlərin nümayəndələrini qəbul etməlidir. Xüsusilə Monqolustan qaçqınlara sığınacaq verməyə hazırdır: "Mən bilirəm ki, bu qanlı müharibə başlayandan bəri ən çox Rusiyada yaşayan etnik azlıqlar əziyyət çəkib. Buryat monqolları, tuva monqolları və kalmık monqolları artıq xeyli əziyyət çəkiblər, onlardan sadəcə yem kimi istifadə olunur, yüzlərlə insan yaralanır, minlərlə adam öldürülür".

O, həmçinin Ukrayna ərazisində olan rus hərbçilərinə yerli sakinlərə atəş açmamağa və onların azadlığını əlindən almamağa çağırıb. Elbeqdorj Ukraynanın mövcud olmağa tam haqqı olduğunu qeyd edib və ukraynalılara və prezident Vladimir Zelenskiyə göstərdikləri cəsarətə görə təşəkkür edib. Ağ Evin mətbuat katibi Karine Jean-Pierre dünən bildirib ki, Vaşinqton Kremlin hərəkətləri ilə Rusiya vətəndaşları arasında bölücü xətt çəkir: "Biz Rusiya hökumətinin və onun Ukraynadakı silahlı qüvvələrinin hərəkətlərinə, ədalətsiz müharibəyə qarşı çıxan Rusiya vətəndaşları arasında aydın fərq qoyuruq".

## Qadınlar müharibəyə qarşı

Rusiyada müharibə əleyhinə hərəkatın tərkibində qadınların çox olması tamamilə təbiidir. Hüquq müdafiəçisi Natalya Pelevinanın fikrincə, səfərbərliklə bağlı ailələri üçün real təhlükənin dərk edilməsi qadınları qəti addımlar atmağa sövq edib: "Oğullarını, ərlərini, qardaşlarını tamamilə mənasız müharibəyə göndərməyə gəldikdə, əlbəttə ki, qadınlar kəskin reaksiya verməli oldular, bu baş verdi. Üstəlik biz görürük ki, məsələn, Dağıstanda qadınlar açıq şəkildə müharibəyə qarşı çıxırlar, deyirdilər ki, Ukrayna bizə hücum etməyib, biz niyə Ukraynaya hücum etdik. Belə çıxır ki, mərkəzdən uzaqda yerləşən bölgələrdə insanlar reallığı təsəvvür edə biləcəyimizdən qat-qat artıq başa düşürlər və Kreml yönümlü təbliğat heç də hər şeyə qadir deyil".

"Buryatiya sakinləri Ukraynaya döyüşməyə getməmək üçün ordu müqavilələrindən imtina edirlər". Bunu Azad Buryatiya Fondunun rəhbəri Aleksandra Qarmazhapova deyib.

O bildirib ki, bir çox buryatlar müqavilələrdən imtina etməyə çalışırlar: "Bu yaxınlarda mənə müqaviləli əsgər yazıb, bildirib ki, müqaviləni ləğv edir. Və dedi ki, mən işğalçı olmaq istəmirəm, xüsusən də Rusiyada irqçiliklə qarşılaşdığım üçün bu mənim üçün kifayətdir. Mən başa düşmürəm ki, biz Ukraynanı niyə "deazifikasiya edirik". Onun məlumatına görə, Buryatiyanın 300-dən çox hərbi zabiti Ukraynaya xidmətə getməmək üçün müqavilənin ləğvinə kömək etmək xahişi ilə indi ona müraciət edib.

Bəli, dünya ölkələri, Rusiyadan incik düşən, yaxud bu ölkəni özünə düşmən bilənlər Putinin elan etdiyi səfərbərlikdən bir cür yararlanmağa çalışırlar. Rusiya ərazisində yaşayan milli azlıqların dərdi isə bambaşqadır. Rusiya ordusunun tərkibində Ukraynada gedən müharibədə iştirak edən, yaralanan, həyatını itirənlərin milli mənsubiyyətinə nəzər salsaq burada birbaşa millətçilik simptomları tapmaq olar. Ölənlər arasında qeyri-rusların üstünlük təşkil etməsi ucqarları da hərəkətə gətirib. Bu isə muxtar qurumlarda etiraz dalğasının başlanmasına təkan verib. Moskvanın bu məsələyə reaksiyasını eşitmək çox maraqlı olardı...

**V.VƏLİYEV**

# Tarixi Qələbə soraqları

*“Bu gün Azərbaycan Ordusu Tərtər rayonunun Talış kəndini, Cəbrayıl rayonunun Mehdili, Çaxırlı, Aşağı Maralyan, Şəybəy və Quycaq kəndlərini, Füzuli rayonunun Aşağı Əbdürrəhmanlı kəndini azad etmişdir. Qarabağ Azərbaycandır!" bu sözlər Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 3 oktyabr 2020-ci il tarixində özünün rəsmi "Twitter" səhifəsində yazıb. Hər gün milyonlarla insan Azərbaycan Ordusunun işğaldan azad etdiyi ərazilərin adlarını eşitdikdə yaşadıqları sevinc hissinin əvəzi yox idi.*

## *Prezident İlham Əliyev: "2020-ci il oktyabrın 3-dən Madagizin tarixi adını bərpa edirəm"*



İki il bundan əvvəl tariximizə yazılan qələbələr bizi Zəfərə doğru aparırdı. Azərbaycan Ermənistan tərəfindən 20 faiz torpaqları işğal edildiyi dövrdə öz səsini dünya ictimaiyyətinə daha intensiv şəkildə çatdırdı, təbliğatı daha da gücləndirərək, ermənilərin işğalçılıq siyasətini, terrorçuluq fəaliyyətini, 1 milyon insanın qaçqınlıq problemini Avropa dövlətlərinə, ümumilikdə, dünya ictimaiyyətinə daha geniş şəkildə çatdırdı. Tarix boyu işğalçılıq siyasətini həyata keçirməyə çalışan ermənilər azərbaycanlılara qarşı hər bir sahədə düşmənçilik edərək, məkrli planlarını həyata keçirməyə cəhd göstərdilər. Onlar silahla torpaqlarımızı işğal edir, eləcə də, mənəvi abidələrimizə də zərbə vurmaq yolu ilə vandal siyasətlərini davam etdirmiş oldular. İkitərfli mübarizədə siyasi və ideoloji müharibədə erməni kimliyi özünü büruzə vermiş oldu. Əlbəttə ki, bu ideoloji müharibədə məqsəd xalqımızın tarixi kökünü saxtalaşdırmaq idi. Belə ideoloji müharibələrdən biri də xalqımızın yaşadığı torpaqların qədim sakinləri olduğunu göstərən coğrafi adların dəyişdirilməsi ilə müşahidə olundu. Yaxın keçmişimizin olayları nəticəsində, vətənimizin ayrılmaz hissəsi olan Qarabağ və onun ətrafında baş verən hadisələr zamanı Ermənistanda yaşayan azərbaycanlılar 1988-89-cu illərdə SSRİ dövlətinin birbaşa köməyi və yardımı ilə öz tarixi-etnik torpaqlarından deportasiya olundular. Qısa bir müddət ərizində, iki ildən sonra Ermənistan prezidentinin fərmanı ilə 1988-89-cu ilə qədər azərbaycanlılar yaşamış 16 rayonda 90 türk mənşəli toponimlər dəyişdirilərək erməni adı ilə əvəzləndi. Bu ”rəsmi sənəd” 1991-ci ili əks etdirir.

### ”BU GÜN AZƏRBAYCAN ORDUSU MADAGİZDƏ AZƏRBAYCAN BAYRAĞINI QALDIRDI

### MADAGİZ BİZİMDİR. QARABAĞ AZƏRBAYCANDIR!”

Bəli, ermənilər təkcə Ermənistanda deyil, Azərbaycanın bir sıra məkanlarını da adını dəyişib. Elə 3 oktyabr 2020-ci il tarixində erməni işğalından azad olunan Tərtər rayonunun Suqovuşan kəndinin adı ermənilər tərəfindən dəyişdirilərək Madagiz adlandırılmışdır. Azərbaycan ordusu tərəfindən işğaldan azad olunan Suqovuşan tarixi adına da qovuşdu. Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən Tərtər rayonunun Madagiz kəndinin Suqovuşan kəndi adlandırılması ilə tarixi adı bərpa olundu. Tərtər rayonunun Çaylı kənd inzibati ərazi dairəsi tərkibindəki Madagiz kəndi Suqovuşan kəndi adlandırıldı. Bu, qürurverici haldır.

”2020-ci il oktyabrın 3-dən Madagizin tarixi adını bərpa edirəm. Bundan sonra Suqovuşan adlandırılır. Qarabağ Azərbaycandır!” u barədə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev özünün rəsmi ”Tvitter” səhifəsində bildirmişdi.

Suqovuşan kəndinin tarixi dövrünə nəzər salsaq görərik ki, əvvəllər Dağlıq Qarabağ Muxtar VilayətindəAğdərə rayonu inzibati ərazisinə aid idi, lakin 1992-ci ildə Ağdərə rayonu ləğv edilərək ərazisi qonşu Ağdam rayonu, Tərtər rayonu və Kəlbəcər rayonu arasında bölüşdürüldü. Suqovuşan kəndi dəTərtər rayonuna birləşdirilən kəndlərdən biridir.

Suqovuşan ilk dəfə 1991-1992-ci illərdə Azərbaycan Ordusu tərəfindən işğaldan azad edilib. 1994-cü ilin aprel ayında Manvel Qriqoryanın başçılığı altında Ermənistan ordusunun Eçmiədzin könüllülər dəstəsi yenidən Suqovuşanı işğal edilib. Artıq Azərbaycanın güclü ordusu tərəfindən işğaldan azad olundu.

2020-ci ilin 3 oktyabr tarixində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev özünün rəsmi ”Tvitter” səhifəsində yazırdı: ”Bu gün Azərbaycan Ordusu Madagizdə Azərbaycan bayrağını qaldırdı. Madagiz bizimdir. Qarabağ Azərbaycandır!”

### ”BİZ ÇOX GÜCLÜ HƏRBİ TƏRKİB HİSSƏ YARATDIQ VƏ İKİNCİ QARABAĞ MÜHARİBƏSİ BUNU GÖSTƏRDİ”

Azərbaycan ordusu ilk gündən düşmənin müdafiə xəttini yarmağa müvəffəq oldu və 44 gün ərzində yalnız qələbə xəbərləri aldıq. Azərbaycan xalqı, ordumuz Ali Baş Komandanın ətrafında bir yumruq olaraq birləşdi və Vətən müharibəsində öz gücünü nümayiş etdirdi. Ermənistan və onun havadarları tərəfindən hərbi əməliyyatları dayandırmaq üçün Azərbaycana diplomatik və siyasi təzyiqlər göstərilsə də, Prezident İlham Əliyevin qətiyyəti, siyasi iradəsi hər şeyi demiş oldu. Dövlət başçısının dünyanın aparıcı mediasına verdiyi 30-a yaxın müsahibəsində Azərbaycanın iradəsini ortaya qoymuş oldu. Azərbaycan Ordusunun qarşısında davam gətirə bilməyən ermənilər təcavüzkar siyasətlərini davam etdirərək, dinc əhalini hədəfə aldılar və yaşayış məntəqələrini ballistik raketlərdən atəşə tutdular.

Dövlət başçısı tərəfindən prioritet elan edilən ordu quruculuğu sayəsində Azərbaycan Ordusu ən müasir silahlarla silahlanmış, dünyanın ən güclü orduları sırasında özünə layiqli yer tutmuşdu. Peşəkarlığı yüksək olan Azərbaycan Ordusunun ən yüksək texnologiyalara məxsus hərbi texnikalarla silahlanması və ölkəmizin də inkişaf etmiş hərbi-sənaye kompleksinə malik olması qələbəmizi şərtləndirən amillərdəndir. Azərbaycan Ordusu həm hərbi potensialına, həm də döyüş qabiliyyətinə görə nəinki bölgədə, dünya miqyasında güclü ordular sırasındadır. Son illərdə ordu quruculuğunda əhəmiyyətli islahatlar həyata keçirilib, bu məsələ ilə bağlı dövlət başçısı tərəfindən ardıcıl olaraq addımlar atılıb ki, bunun da müsbət nəticələri özünü 44 günlük Vətən müharibəsində büruzə verdi. ”Silahlı qüvvələrin döyüş qabiliyyətinin artırılması üzrə gündəlik böyük iş aparılırdı”, - deyən Cənab Prezident qeyd edib ki, döyüş qabiliyyətli silahlı qüvvələri olmayan ölkə necə texniki vasitələrə malik olsa belə, onun döyüşdə, xüsusən müharibədə, özü də belə əlverişsiz coğrafi şəraitdə qalib gəlməsi mümkün olmazdı: ”Əslində, bu tədbirlər kompleksi onunla nəticələndi ki, biz çox güclü hərbi tərkib hissə yaratdıq və İkinci Qarabağ müharibəsi bunu göstərdi”.

Torpaqlarımızı 30 ilə yaxın işğal altında saxlayan Ermənistana şanlı ordumuz layiqli cavab verir və hər gün irəliyə doğru addımlayaraq xalqımıza qələbə sevincini yaşadırdı. Qəsbkar düşmənə ağır zərbələr vurulurdu. Ermənilər haqsızlığın, ədalətsizliyin sonu olacağını aldığı zərbələrdən anlayırdılar. Hər zaman münaqişə ocaqları törətməyə, qan tökməyə cəhd edən Erəmnistan ağır məğlubiyyətə düçar olurdu. Qəhrəman ordumuz Ali Baş Komandanın rəhbərliyi ilə torpaqlarımızı düşmən işğalından qətiyyətlə azad edirək xalqımıza tezliklə Qələbə sevincini - Zəfərimizi yaşatdı.

***Nəzakət ƏLƏDDİQIZI***

## “Təxribatlar Qərbin Ermənistana verdiyi tapşırıqdan irəli gəlir”



“Erməni tərəfinin Kəlbəcər və Laçın ətrafındakı təxribatları Paşinyan iqtidarının xarici siyasətinə Qərbdən olan təzyiqlərlə bağlıdır. ATƏT-in Minsk qrupunun tərəflər arasında danışıqlarda yenidən vasitəçi qismində çıxış etmək, habelə Qarabağın təhlükəsizliyi ilə bağlı məsələləri qabardaraq onun gələcək müqəddəratı ilə bağlı amillərin gündəmdə saxlanılması Ermənistan və Qərbin birgə maraqlarına cavab verən layihədir”. Bunu ”Səs” qəzetinə açıqlamasında politoloq Elşən Manafov deyib.

Onun sözlərinə görə, Minsk qrupunun yenidən dirçəldilməsi Azərbaycanın danışıqlarda mövqeyinə təsir vasitəsi kimi nəzərdən keçirilir: ”ABŞ-ın Ermənistanı öz təsir dairəsinə salmaq, Rusiyanın bölgəyə nüfuz dairəsini daraltmaq, Qarabağ problemini gündəmdə saxlamaqla Azərbaycanla münasibətlərdə ondan təsir vasitəsi kimi bəhrələnmək istəklərindən irəli gəlir. Azərbaycanın müstəqil və çoxtərəfli siyasəti Qərbdə bəlli dairələrin maraqlarına cavab vermir. Rusiya ilə münasibətlərin Qərbin təklif etdiyi müstəvi üzərinə gətirilməsi tövsiyə olunur. Azərbaycanın loqistika imkanlarının Rusiya üçün məhdudlaşdırılması gözlənilir ki, bunlar Rusiyanın perspektivdə bölgədə təsir imkanlarının məhdudlaşdırılmasına hesablanıb, Azərbaycanın Qarabağ dövlətimizin daxili işidir kimi məlum mövqeyi görünür Qərbdə erməni diasporu ilə işbirliyində olan ABŞ konqresində və Dövlət departamentindəki bəzi dairələri qane etmir. Fransa Senatında da erməni diasporunun lobbiçilik təkliflərindən mənfəət götürən siyasətçilərin olması nəzərə alınarsa rəsmi İrəvanın danışıqlara yeni ştrixlər qatmasının haradan qidalandığı bəllidir”.

***Gülyana***

## Yol qəzalarında yenə 3 nəfər ölüb

Ötən gün yol qəzalarında 3 nəfər ölüb. Bu barədə SİA-ya Daxili İşlər Nazirliyinin Mətbuat Xidmətindən məlumat verilib. Qeyd olunub ki, respublikanın avtomobil yollarında ölümlə nəticələnən 3 yol-nəqliyyat hadisəsi baş verib, nəticədə 3 nəfər ölüb. Həmçinin yol qəzaları nəticəsində 1 nəfər isə xəsarət alıb.



# Qondarma "erməni məsih" və UĞURSUZ "ZÜHUR"



Məğlubiyyət acısını yaşayan Ermənistan cəmiyyətinə, batmaqda olanın saman çöpünə əl uzadacağı ümidi ilə özünü, öz hakimiyyətini sırımağa çalışan Koçaryan yenə də hiyləgərliyi və hakimiyyət hərisliyi ilə diqqəti cəlb edib. Ən çox da erməni dövlətini böhrandan çıxarmaq üçün guya xüsusi yollar təklif edən Koçaryanın özünü "məsih" kimi aparması isə böyük ikrah doğurur. Çünki erməni xalqı özü belə bu hiyləgərin dondan-dona girdiyini yaxşı bilir və görür ki, o erməni dövlətini böhrandan çıxarmaq üçün heç zaman xüsusi yollar təklif etməyib və indi də heç bir yol təklif etmir, sadəcə hakimiyyəti ələ keçirmək üçün müxtəlif yollara əl atır.

Ermənistanın ikinci prezidenti olmuş Robert Koçaryanın mətbuat konfransı keçirməsi, konfransda fərqli fikirlər səsləndirməsi bu ölkənin özündə belə müxtəlif fikir ayrılıqlarına, spekulyasiyalara səbəb olub. Düzdür, Robertin mətbuat konfransı keçirməsi birinci dəfə deyildi, onun adamları mütəmadi olaraq mediada çıxış edirlər və ermənilər öz ölkələrinin ən böyük müxalifət qüvvəsinin belə nə halda və necə nəfəs aldığını da az-çox bilir. Kimlərsə Robert Sedrakoviçin birdən-birə işıq saçacağını və guya Ermənistanı xilas etmək reseptini təqdim edəcəyini ağlının ucundan belə keçirirdilərmi, ona ümid edilirdimi? Əsla yox. Əslində, Koçaryan mətbuatla ünsiyyətindən başqa heç nə əldə edə bilmədi.

Əsl həqiqətlər göz önündədir və həmin həqiqətlər ondan ibarətdir ki, özünü xilaskar, hətta məsih kimi göstərmək, təqdim etmək istəyən Robert Koçaryan eyni ilə əvvəlki kimi, ölkə rəhbəri kürsüsünə qayıtmaq üçün irrasional fikrindən əl çəkmək niyyətində deyil. "Hakimiyyət dəyişikliyi mütləq tələbdir və aydındır ki, xəstəliyə sövq edən mühitdə sağalmaq da mümkün deyil", deyən Sedrakoviç bütün çıxışını eyni mövzuya, hakimiyyət dəyişikliyinə həsr edib və məqsədi də özünün hakimiyyət kürsüsünə gəlməsinə nail olmaq olub. Bunu da artıq erməni cəmiyyəti yaxşı başa düşür və çətin ki, ikinci erməni prezidenti bunu xəyallarında belə bir də təsəvvür edə.

Koçaryanın özünün belə etiraf etdiyi kimi, indi erməni cəmiyyəti keçmiş günlərinə qətiyyən dönmək istəmir. İstəməz axı. Çünki başına gələn müsibətlərini unutmayıb və bu gün qarşılaşdıqları acınacaqlı vəziyyətin toxumunun həmin o hakimiyyət tərəfindən cücərdildiyini yaxşı bilir. Ən maraqlısı odur ki, hər dəfə olduğu kimi, bu dəfə də "erməni məsihi" rolunda çıxış edən Koçaryan əslində, Ermənistan dövlətini böhrandan çıxarmaq üçün heç bir xüsusi yol təklif etməyib. Bu baxımdan onun mətbuat konfransında dediklərinin hamısı cəfəngiyyat kimi qəbul edilir. Təsadüfi deyil ki, erməni cəmiyyəti Robert Köçəryanın sonuncu mətbuat konfransındakı çıxışına tamamilə biganə qaldı. Elə isə özümü məsih kimi sırıması heç bir effekt verməyib, verə də bilməz. Belələri xilaskar yox, baiskardırlar və bunu da artıq bilməyən yoxdur. Beləliklə, Robertin erməni xalqına öz ağlının məhsulu olaraq "məsih"in zühuru missiyası götürməsi uğursuzluqla nəticələndi. Eyni bütün uğursuzluqları kimi. Belə uğursuzluqları fonunda çətin ki, erməni xalqı könüllü olaraq hakimiyyəti ən nifrət edilən daxili siyasətçilərdən birinə gümüş nimçədə təqdim etmək istəsin.

### Axmaqlıq, yoxsa xəyanət?

Ermənistanın eks-prezidentinin həmin işğalçı ölkənin zəifliyini dərk etməsi fonunda təhlükəsizlik baxımından çarəni yanlış yerdə, yəni qeyri-sabitliyə qucaq açan yaramaz dövlətlərdə axtarması ya axmaqlıq, ya da xəyanət kimi qiymətləndirilir. Koçaryan İranla münasibətləri dərinləşdirməyi ya amaqcasına, ya da xəyanətkarcasına təklif edir. İndi İran ən güclü etirazlarla sarsılan bir ölkədir və bu etirazların nəticəsini proqnozlaşdırmaq belə mümkün deyil. Üstəlik, bütün dünya İrana qarşı çıxdığı bir vaxtda belə təklifə erməni cəmiyyəti çox aqressiv yanaşdı.

Digər tərəfdən Sedrakoviçin Ermənistanı Rusiyanın ayaqları altına sürükləməyə çalışdığı da açıq şəkildə özünü biruzə verir. Hakimiyyəti dövründə öz ölkəsini Rusiyadan tam asılı vəziyyətə salan Koçaryanın yenə də eyni plan üzrə hərəkət etmək istədiyi görünür. Düzdür, Robert hər zaman Rusiyanın ən yüksək rütbəli müxtəlif növ məmurları tərəfindən açıq-aşkar təhqir olunub, amma bu, onu heç narahat da etməyib, çünki həmişə yalnız şəxsi hakimiyyətinin təhlükəsizliyindən narahat olub. Elə indi də hakimiyyəti üçün çalışır və ölkəsini gah İranın, gah da Rusiyanın ayaqları altına atması, suverenliyinin əldən verilməsi təhlükəsini hesba belə almadan müvafiq fikirlər söyləməsi Ermənistan ictimaiyyətində, erməni cəmiyyətində onun xain olması barədə şübhələrin peyda olmasına gətirib çıxarıb. Deməli, erməni xalqı Robert Sedrakoviçi ya axmaq, ya da xain hesab edir ki, bu halda "erməni məsihi" kimi özünü aparması çox gülüncdür. Bir sözlə, "erməni məsihi" obrazında rola girməsi uğursuzluqla nəticələnib.

Təbii ki, reallıqlardan kənar danışanlar, hərəkət edənlər uğursuzluqla da qarşılaşmalıdırlar. Ən azından real vəziyyəti söyləyənlərin, reallıqları göstərənlərin fikirlərinə diqqət edilir. Məsələn, Koçaryanın fikirlərinə məhəl qoyulmadığı halda, Ter-Petrosyanın Qarabağ klanı barədə dedikləri Ermənistanda rezonans doğurub. Bəziləri onu ağlını itirmiş, axmaq qoca adlandırsalar da ermənilərin əksəriyyəti qəbul edir ki, uduzduqlarını, itirdiklərini etiraf etməkdə o haqlıdır və erməni cəmiyyətini illüziyalardan yaxa qurtarmağa çağırması doğru çağırışdır. Ermənistan cəmiyyəti üçün özünün birinci prezidentinin dediklərinə qulaq asması son dərəcə ağrılı olduğu kimi, dediklərini qəbul etməsi bundan da ağrılıdır, amma bununla belə qulaq asılır, hesaba alınır.

"Yeni hökumət gələcək", deyə pafosla çıxış edən Seyran Ohanyan, yəni Ermənistanın keçmiş müdafiə naziri bəllidir ki, "yeni hökumət" dedikdə, Koçaryanı və özünü nəzərdə tutur, amma unudur ki, erməni xalqı onların dövründə nə günlərə qaldığını unutmayıb. Özlərini yenilməz kimi sırımağa çalışan bu sabiq nazir bilmirmi ki, Ermənistan hərbisində korrupsiya, "dedovşina" və kriminal anlayışlar məhz onun dövründə çiçəkləndi? Bilmirmi ki, hərbçilərin araşdırılmayan qətliamları və intiharları da onun dövründə olub? Generalların və polkovniklərin milyonçuya çevrilməsindən yoxsa Ohanyan xəbərsizdir? Ağlına gəlmirmi ki, belə milyonçular təsadüfi peyda olmamışdılar və onların hakimiyyətləri dövründə buna şərait yaradılmışdı? Əlbəttə ki, hər şeydən xəbəri var və ermənilərin uduzduqları barədə Ter-Petrosyanın etiraflarını nə qədər axmaqlıq kimi qələmə verməyə çalışsa da faktlar gözləri önündədir və Ermənistan üçün ağrılı olan həqiqətlərlə, məğlubiyyətləri ilə, başda elə Ohanyan, Koçaryan olmaqla barışmalıdırlar.

Başda elə Seyran Ohanyanın özü olmaqla, Sarkisyanın düşərgəsindən çıxış edənlər daha da əhəmiyyətsiz görünürlər. Məsələn, Armen Aşotyan birinci prezidentin müsahibəsini şərh edərkən bildirib ki, "ölkənin acınacaqlı vəziyyəti indiki vəziyyətdən çıxış üçün ən effektiv konsensus yolunun axtarışını diktə edir". Maraqlıdır, məgər Ohanyan bilmirmi ki, nəzərdə tutduğu dırnaqarası "şanlı" hakimiyyətinin on illiyi ərzində ölkəsini bərbad vəziyyətə salan onun ağası Serj Sarkisyan olub? Əlbəttə bilir. Onu da bilir ki, Ermənistanın artıq heç bir rol oynamadığı Qarabağ torpaqlarını unutmaları, sülh müqaviləsi imzalayaraq yaşamağa davam etmələri, hazırda ölkələri üçün başqa çıxış yolunun olmadığı barədə deyilənlər əsl reallıq və həqiqətdir. Ağlını itirmiş bir qoca saydıqları adam əslində, çarəsizliklərini və yeganə çıxış yolunu, vəziyyətə barışmağın yeganə doğru yol olduğunu ermənilərə göstərir, uduzduqlarını bəyan edir, vəziyyəti geri qaytarmağın mümkünsüzlüyünü söyləyir. İşğalçı ölkənin birinci prezidentinin dediyi kimi, indi artıq onlar üçün Ermənistanın dövlətçiliyini qoruyub saxlamaq daha vacibdir, nəinki başqalarının torpaqlarına göz dikib mənimsəmək istəmələri və orada dövlət yaratmaq istəyinə düşmələri.

***İnam Hacıyev***

## "Bütün bunlar çox böyük vandalizm aktıdır"



"Azərbaycan torpaqlarının 1990-cı ilin əvvəllərindən işğal edilməsi ilə başlayan proses yekunda ölkəmizin ərazisinin 20 faizinin ermənilər tərəfindən işğal edilməsi ilə nəticələndi. Əlbəttə, işğal prosesində 1 milyondan çox vətəndaşımızın qaçqın düşməsi ilə yanaşı, mənəvi mirasımız olan abidələrimizin dağıdılması da ən çox təəssüf doğuran məqamlardan biri idi. Çünki bütün dünyada dini-tarixi abidələr ümumdünya mirası hesab olunur və insanlar çalışmalıdır ki, tarixi-dini abidələrin qorunması, gələcək nəsillərə çatdırılmasını təmin etsinlər". Bu sözləri SİA-ya açıqlamasında Mənəvi Dəyərlərin Təbliği Fondunun icraçı direktorunun müavini Ceyhun Əliyev deyib.

Onun sözlərinə görə, təəssüflər olsun ki, Azərbaycanın həmin dövrdə işğal edilmiş ərazilərində xüsusilə dini abidələrinə qarşı amansız bir vandalizm aktları törədilib. Azərbaycanın həmin ərazidə yerləşən 67 məscidindən 65-i tamamilə yerlə yeksan edilərək dağıdılıb. Digər məscidlərdə isə bizim dini-mənəvi və ənənəvi dəyərlərimizə uyğun olmayan heyvan saxlanılması, həmin məscidlərin divarlarının müxtəlif yazılarla təhqir edilməsi, dəyərlərimizə qarşı edilən müxtəlif hörmətsizliklər ənənəvi hal almışdı. Şükürlər olsun ki, Vətən müharibəsində ərazi bütövlüyümüzü bərpa edərək torpaqlarımızı işğaldan azad etdik.

O ki qaldı ermənilərin abidələrimizə qarşı törətdikləri vəhşiliklərə, bütün bunlar çox böyük vandalizm aktıdır. Çünki ermənilər nəinki bizim məscidlərimizi, eyni zamanda həmin ərazidəki kilsələrə qarşı da vandalizm aktları törədiblər. Ceyhun Əliyev sözlərinə belə davam edib: "Biz əlimizdən gələni edirik ki, erməni vandalizm aktları dünyaya çatdırılsın. Çünki bəzən ikili standartlar çərçivəsində haqsız da olsa Azərbaycanla bağlı qeyri-ədalətsiz mövqe nümayiş olunur. Halbuki, Azərbaycanın tarixi-dini abidələrinə qarşı törədilmiş vandalizm aktlarından çox az danışılır.

Bakının mərkəzinə gələn hər bir qonağımız erməni kilsəsinin qorunub saxlanıldığını görə bilər. Amma bizim bir ibadət evimizdə belə bizə aid bir kitab saxlanılmayıb. Bu vandalizm aktını ilahiyyatçı olaraq qətiyyətlə pisləyirəm. Biz çalışmalıyıq ki, heç bir torpağımıza yad və məkrli əllər toxunmasın. Bir daha heç bir məscidimizdə azan səsi kəsilməsin. Azərbaycanın bayrağı ucalardan ucada dalğalansın ki, biz daha da güclü olaq və düşmən əsla baş qaldıra bilməsin".

***Ayşən Vəli***

## Gübrənin bahalaşması iqtisadiyyata necə təsir edəcək?

"Gübrənin bahalaşması təkcə Azərbaycanda deyil, həm də dünyada kənd təsərrüfatı məhsullarının bahalaşmasına gətirib çıxarır". Bu fikirləri SİA-ya açıqlamasında iqtisadçı Xalid Kərimli bildirib.

Onun sözlərinə görə, gübrə gündəlik tələb etdiyimiz meyvə və tərəvəzlərin yetişdirilməsində istifadə olunur: "Gübrənin bahalaşması onların istehsal xərclərini artırır. Bunun nəticəsində də ərzaq qiymətlərində artım müşahidə olunur. Azərbaycan iqtisadiyyatında gübrənin qiymətinin artımı ikitərəfli təsir göstərir. Azərbaycan gübrə ixracatçısı olduğuna görə gübrənin bahalaşması ölkənin icrac gəlirlərini artırır. Eyni zamanda da gübrənin bahalaşması kənd təsərrüfatı məhsullarının istehsal xərclərini artırdığı üçün qiymətlərin artmağına səbəb olur".



***Abutel İlhamqızı***





# Şəhidlər ölməz, vətən bölünməz!

## *Respublikamızın bütün bölgələrində şəhidlər ehtiramla yad edilir*

***Respublikamızın bütün bölgələrində vətən uğrunda canından keçən vətən oğullarının məzarları ziyarət olunur, xatirələri ehtiramla yad edilir. Yasamal rayonunda da 44 günlük Vətən müharibəsi şəhidi, kiçik gizir Mikayılzadə Rəşad İlham oğlunun doğum günü münasibəti ilə məzarı ziyarət olunaraq dərin ehtiramla yad edilib. YAP Yasamal rayon təşkilatının sədri Bəxtiyar Nəbiyev,Yasamal rayon icra hakimiyyətinin başçısı Elşad Həsənov, Yasamal rayon icra hakimiyyətinin əməkdaşları, şəhidin ailə üzvləri və yaxınları, Yasamal rayon ictimaiyyətinin nümayəndələri mərasimdə iştirak ediblər. Şəhidin ailə üzvləri göstərilən diqqət və qayğıya görə, Prezident İlham Əliyevə, Birinci vitse-prezident Mehriban xanım Əliyevaya minnətdarlıqlarını bildiriblər.***

Qeyd edək ki, Azərbaycan Respublikasının Prezidenti Cənab İlham Əliyevin sərəncamına əsasən, şəhid Mikayılzadə Rəşad İlham oğlu ölümündən sonra "Vətən uğrunda", "Döyüşdə fərqlənməyə görə" və "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif edilmişdir.



Bundan başqa dünən YAP Cəlilabad rayon təşkilatının rəhbərliyi və fəalları Azərbaycanın ərazi bütövlüyü uğrunda gedən Vətən müharibəsindəki döyüşlərdə qəhrəmancasına şəhid olan Cəlilabad rayon Hamarqışlaq kənd sakini, şəhid Hüseynov Cavid Habil oğlunun şəhadətinin ikinci ildönümü ilə əlaqədar şəhidin məzarını ziyarət etmiş, şəhidin valideynlərinə dərin hüznlə başsağlığı vermiş, əziz xatirəsini ehtiramla yad etmişlər.

Göygöl rayon Şəhidlər xiyabanında dəfn olunan şəhid Məhərrəmli Fuad Füzuli oğlunun və baş leytenant Məmmədov Cavad Səfiyar oğlunun ildönümü mərasimində Kəlbəcər rayon icra hakimiyyətinin başçısı Azər Qocayev, YAP Kəlbəcər rayon Təşkilatının sədri Həbib Misirov, rayon İcra Hakimiyyətinin məsul əməkdaşları, , rayonun hüquq-mühafizə orqanlarının rəhbərləri, Göygöl RİH-nin məsul əməkdaşları, şəhid ailələri, yaxınları, qazilər, müharibə iştirakçıları iştirak ediblər.









Vətənimizin ərazi bütövlüyü uğrunda canından keçmiş şəhidlərimizin əziz xatirəsi ehtiramla anılıb, ruhuna dualar oxunub, şəhidlərimizin döyüş yolu barədə söhbət açılıb və şəhidlərimizin qanının yerdə qalmadığı bildirilib. Eyni zamanda qeyd olunub ki, Azərbaycan xalqı Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi və müzəffər ordumuzun qüdrəti altında qəhrəman oğullarımız sonsuz cəsarət və qəhrəmanlıq göstərərək həyatları bahasına torpaqlarımızı düşməndən azad etdi. Üçrəngli bayrağımız Respublikamızın bütün guşələrində olduğu kimi, işğaldan azad edilmiş torpaqlarımızda da əzəmətlə dalğalanmaqdadır.

RİH-nin başçısı şəhid ailələri ilə yaxından maraqlanıb, qayğı və ehtiyaclarını öyrənib, onlara dərin hüznlə başsağlığı verib.

Şəhidin ailə üzvləri onlara göstərilən yüksək ehtiram və qayğıya görə Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevə və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya öz minnətdarlığını bildirib.

Qeyd edək ki, Vətən müharibəsi şəhidi Məhərrəmli Fuad Füzuli oğlu 10 may 2001-ci ildə Tərtər şəhərində anadan olub. 2007-ci ildə Bakı şəhər Suraxanı rayon Yeni Ramana qəsəbəsində yerləşən Fərrux İsrafil oğlu Mehtiyev adına Qubadlı rayon Qaralar kənd tam orta məktəbinin 1-ci sinifinə daxil olub. Orta məktəbi bitirdikdən sonra 2019-cu ilin iyul ayında Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Kəlbəcər rayon bölməsi tərəfindən həqiqi hərbi xidmətə çağırılıb.

Fuad hərbi xidmətdə olduğu müddətdə də öz biliyi, bacarığı və xüsusi xidməti ilə fərqlənib. Azərbaycan Ordusunun əsgəri olan Fuad Məhərrəmli 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsində Füzuli rayonunun Qaraxanbəyli, Qərvənd, Kənd Horadiz, Yuxarı Əbdürrəhmanlı, Cəbrayıl rayonunun Böyük Mərcanlı və Nüzgar kəndlərinin azad olunmasında böyük şücaət göstərib. 28 sentyabr 2020-ci ildə Cəbrayıl rayonunun Nüzgar kəndi istiqamətində döyüş tapşırığının yerinə yetirilməsi zamanı qəhrəmancasına şəhid olmuşdur. Subay idi. 29 sentyabr 2020-ci ildə Göygöl rayon Şəhidlər Xiyabanında dəfn edilib.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin müvafiq sərəncamı ilə F.Məhərrəmli ölümündən sonra "Vətən uğrunda" və "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edilmişdir. Məmmədov Cavad Səfiyar oğlu 25 may 1980-ci ildə Göyçə mahalında doğulub. Baş leytenant 28 sentyabr 2020-ci ildə Murovdağ istiqamətində gedən döyüşlərdə şəhidlik zirvəsinə yüksəlib. Şəhid baş leytenant Cavad Məmmədov ölümündən sonra Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin müvafiq Sərəncamları ilə 3-cü dərəcəli " Rəşadət" ordeni, "Vətənə uğrunda" və" Hərbi xidmətlərə görə" medalları ilə təltif edilib. Bildiririk ki, şəhid Cavad Məmmədov İsmayıllı rayon sakinidir,onun həyat yoldaşı isə Kəlbəcər rayon sakinidir. Şəhidimizin iki övladı Vətənə əmanət qalıbdır.



***Allah bütün şəhidlərimizə rəhmət etsin!***

## Narek Nersisyan: "Eskalasiyanın tam olmayan iki günü ərzində ölənlərin və itkin düşənlərin sayı 207 nəfərə çatdı"

# Erməni eksperti müharibə ehtimalından və çoxsaylı canlı qüvvə itkisindən danışdı

Ermənistanın Azərbaycana qarşı 12-14 sentyabr tarixlərində törətdiyi təxribatı zamanı şanlı Ordumuzun verdiyi qətiyyətli cavabı nəticəsində düşmənin xeyli sayda texnikası və canlı qüvvəsi məhv edildi. O cümlədən, Silahlı Qüvvələrimiz bir sıra əhəmiyyətli strateji yüksəkliklərə öz nəzarətini təmin etdi. Bu gün Ermənistanın siyasi-ictimai rəyi hakimiyyətin eskalasiya zamanı ölənlərin və itkin düşənlərin tam siyahısını təqdim etmədiyini bildirir və rəsmi siyahı tələb edirlər. Onu da qeyd edək ki, hətta bu gün iki il əvvəl - İkinci Qarabağ müharibəsi zamanı ölən və itkin düşən erməni hərbçiləri barədə məlumatlar verilmir, rəsmi siyahı isə ictimaiyyətə təqdim olunmur.



### Hərbi ekspert: "Ermənistanın hərbi-siyasi rəhbərliyi 44 günlük müharibədən sonra nəticə çıxarmayıblar"

12-14 sentyabr hadisələrindən sonra da eyni hal davam edir və bununla bağlı bir sıra erməni hərbi ekspertləri iddia edirlər ki, ölənlərin və itkin düşənlərin sayı dəfələrlə çoxdur və bunun da səbəbləri var. SİA xəbər verir ki, mövzu ilə bağlı Sputnik-Armeniya saytına açıqlama verən hərbi ekspert Narek Nersisyana görə çoxsaylı itkilərin səbəblərindən biri təmas xətlərində tələb olunan müvafiq təminatların, silah və sursatların olmamasıdır. SİTAT: "... Bu eskalasiya insan itkisi baxımından çox ağır nəticələrə gətirib-çıxardı. Sonradan məlum oldu ki, tam olmayan iki günü ərzində ölənlərin və itkin düşənlərin sayı 207 nəfərə çatıb. Bu rəqəmlərə bir çox ekspertlər və siyasətçilər diqqət yetirdilər. Belə ki, Ermənistanın ikinci prezidenti Robert Koçaryan bu yaxınlarda keçirdiyi mətbuat konfransında da bildirdi ki, əgər təmas xətləri effektli qaydada təmin olunsaydı bu qədər çox əsgər itkisindən yayınmaq mümkün olardı. Kpçaryanın sözlərinə görə, Ermənistanın hərbi-siyasi rəhbərliyi 44 günlük müharibədən sonra nəticə çıxarmayıblar".

### Nersisyan: "Qarşı tərəf Azərbaycandırsa və o, istifadə etdiyi silahlarını bir daha istifadə edirsə hətta ən güclü şəkildə qurulan müdafiə xətti belə ciddi itkilərdən xilas edə bilməzdi"

Hərbi ekspert bununla yanaşı situasiyaya daha geniş rakursdan baxmağa çağırıb və bildirib ki, fortifikasiya qurğuları (müdafiə bəndləri və s.) səviyyəsinin çatışmazlığı heç də sözügedən vəziyyətin əsas səbəbi deyil. SİTAT: "Ola bilsin ki, ikinci prezident mövqelərin tam təmin olunmaması haqqında danışarkən müasir müharibənin spesifikasını özü üçün daha geniş təsəvvür edə bilmir. Əlbəttə, müdafiə xəttini daha yaxşı təşkil etmək mümkün olardı və bu da şübhə doğurmur. Lakin qarşı tərəf Azərbaycandırsa və o, istifadə etdiyi silahlarını bir daha istifadə edirsə hətta ən güclü şəkildə qurulan müdafiə xətti belə ciddi itkilərdən xilas edə bilməzdi".





### Erməni hərbi ekspert: "Bizdə təəssüf ki, uzaq mənzilli zərbə sistemlərinin sayı lazım olan sayda deyil və ya yoxdur"

Nersisyanın sözlərinə görə, Azərbaycan Silahlı Qüvvələri eskalasiya zamanı yalnız minaatanlardan və iri kalibrli atıcı silahlardan istifadə etməyib, eyni zamanda, uzaqmənzilli və reaktiv artilleriyasını, həmçinin zərbə PUA-larını və kamikadze dronlarını da işə salıb. Ekspertin fikrincə, analoqu olmayan təminat olmadıqca belə bir gücün qarşısında dayanmaq qeyri-mümkündür. SİTAT: "Mövcud şəraitdəki döyüş meydanında Ermənistanın iki həll variantı var - ya preventiv zərbələr endirmək lazımdır, ya da çoxeşalonlu havadan müdafiə sistemlərinə malik olmaq gərəkdir... Lakin bizdə təəssüf ki, uzaq mənzilli zərbə sistemlərinin sayı lazım olan sayda deyil və ya yoxdur".



Erməni hərbi eksperti qeyd edib ki, Ermənistanın müttəfiqləri və hərbi-texniki partnoyrları bu sistemləri onlara verməyiblər və bu haqda da danışmaq lazımdır.

Savaş iddiası: "Növbəti müharibə "rahat gəzinti" olmayacaq"

"Mühəndis işlərinə gəlincə keçmiş zabit bildirib ki, 44 günlük müharibədən sonra hərbi rəhbərlik uzun müddətə hesablanmış müdafiə qurğularını, beton-möhkəmləndirmə sədlərini, müvafiq maskirovkaları, müşahidə kameralarını və s. texniki tələbatları təmin etməyə borclu idi və bunları həyata keçirməliydi. Ancaq arsenalın yarıboş qaldığı vəziyyətdə, istənilən halda onların da səmərəsi az olacaqdı" deyə qeyd edən Nersisyan təmas xətlərindəki "nə sülh, nə də müharibə" situasiyasını şərh edərkən bildirib ki, vəziyyətə mövcud hərbi imkanlar baxımından yanaşılarsa erməni tərəfinin əsas operativ və operativ-taktiki addımı qarşı tərəfə, yəni Azərbaycana qarşı maksimal zərər vurmaqdan ibarət olmalıdır. O, yeni münaqişənin daha geniş miqyaslı ola biləcəyini bildirib. Belə ki, hazırkı anda region dövlətlərinin qlobal maraqları toqquşur və növbəti müharibə "rahat gəzinti" olmayacaq.

Erməni hərbi eksperti mövcud vəziyyətdə Ermənistanın hərbi-siyasi rəhbərliyinin fəaliyyətinin sıfır həddində olduğunu da bildirib. O, ölkəsinin təhlükəli vəziyyətdə qalma səbəblərindən biri kimi müxalifətin də fəaliyyətini göstərib, habelə Ermənistanın birinci prezidenti Levon Ter-Petrosyanın bu yaxınlarda səsləndirdiyi bəyanatlarını da əlavə edib. Nersisyan əmindir ki, Ermənistan 44 günlük müharibədəki döyüşlərdə ağır məğlubiyyətə düçar olub və əgər daxili və xarici proseslər bu cür davam edərsə hazırkı məğlubiyyət daha ağır kapitulyasiya ilə nəticəsini tapacaq.

Xatırladaq ki, son günlər Ermənistanın Azərbaycanla delimitasiya və demarkasiya olunmamış sərhədlərinə doğru hərbi texnikaların yerləşdirməsi haqqında məlumatlar gəlməkdədir. O cümlədən, Ermənistanın Baş qərargah rəisi müharibə xarakterli bəyanatlar səsləndirib, habelə ölkə ərazisində ehtiyatda olan çağırışçılar təmas xətlərinə göndərilmək üçün hərbi komissarlıqlara dəvət olunurlar. Bu isə qənaətə gəlməyə zəmin yaradır ki, Ermənistan sülhə hazır deyil.

***Rövşən RƏSULOV***

AKTUAL ANALİTİK



# Ermənistanın təxribatları bu ölkəyə baha başa oturacaq

***İrəvanın havadarları bu ölkənin Azərbaycana qarşı yürütdüyü 30 illik işğalçılıq siyasəti dövründə niyə danışmırdılar, beynəlxalq qanunları, ədalət prinsipini nəyə görə müdafiə etmirdilər?***

Son günlər, xüsusilə 12-14 sentyabr aralığında baş verən növbəti erməni təxribatından sonra rəsmi İrəvan da daxil olmaqla, bütövlükdə Ermənistanın ictimai-siyasi rəyində revanşizm hissləri yenidən alovlanmağa başlayıb. Əslində, revanşizm hissi daha əvvəllər də olub. Belə ki, 2020-ci ildəki acı məğlubiyyətdən və hərbi-diplomatik iflasdan sonra Ermənistanda revanşizm meyilləri, əsasən, müxalifət qüvvələrində cərəyan edirdi. Lakin həmin meyllər zaman-zaman hakimiyyətdə də yaranmağa başladı ki, reallığa qalanda bunun daha bir səbəbi regionumuzda maraqları olan bir sıra xarici ermənipərəst dairələrin fəallaşmasıdır. Xüsusilə, Qərb dairələrində yer alan erməni havadarları Cənubi Qafqaz maraqlarının təmin olunması üçün Ermənistanın düşdüyü acınacaqlı vəziyyətdən öz səmərələri üçün istifadə etməyə cəhdlər göstərirlər.

### Əgər belə olmasa idi Ermənistan regionda gərginliyin qalmasında maraqlı olmadığını əməli qaydada isbatlayar, sülhə doğru addımlarını artırardı

Bütün bunların ardınca isə Ermənistan açıq şəkildə və nümayişkəranə olaraq 2020-ci ildə və ondan sonra əldə olunmuş razılaşmaları - bəyanatları və danışıqlarda razılaşdırılmış digər məqamları rədd edir, hətta şərtlər belə irəli sürməyə cəhd göstərir. Misal üçün, Ermənistanın üçtərəfli bəyanatda əksini tapmış tələblərin icrasından boyun qaçırması ən başlıca məqamlardan biridir. Ermənistan hələ də qəsdən və bilərəkdən Azərbaycan ərazisində qalmış silahlı qüvvələrinə məxsus hərçilərini və texnikalarını çıxarmır, müxtəlif yollarla Qarabağda hərbi mövcudluğunu qoruyub saxlamağa və gücləndirməyə çalışır, Qarabağdakı separatçılar İrəvanın tapşırıqları əsasında ölkəmizin ərazi bütövlüyünə və suverenliyinə qarşı sərsəm bəyanatlar səsləndirir, Ermənistanda isə həmin bəyanatlar ölkə rəhbərliyi tərəfindən dəstəklənir və s.

Daha bir diqqətçəkən nüans budur ki, Ermənistan 12-14 sentyabr təxribatını törətməsi ilə qarşıdurmaların pik həddinə çatmasına zəmin yaratdı və artıq kifayət qədər məlum oldu ki, onlar sülhə hazır deyillər və bu kimi təxribatları ilə müharibə mümkünlüyünü artırırlar. Əgər belə olmasa idi Ermənistan regionda gərginliyin qalmasında maraqlı olmadığını əməli qaydada isbatlayar, sülhə doğru addımlarını artırardı. Ancaq fakt budur ki, müharibə və təxribat ab-havasını saxlamaqla, Ermənistan beynəlxalq ictimai rəylə manipulyasiyalar edir və həmin vasitələrlə Azərbaycanı hədəfə gətirməyə çalışır.

Xarici havadarları isə necə deyərlər, İrəvana ürək-dirək verir, Azərbaycan əleyhinə müxtəlif bəyanatlar səsləndirməklə odun üzərinə benzin tökməklə məşğul olurlar

Beləliklə, daha bir fakt budur ki, Ermənistan hazırda işğaldan azad olunmuş ərazilərdə görülən nəhəng işlərin miqyasını aydın görür, Qarabağda yaşayan ermənilərin Azərbaycan cəmiyyətinə inteqrasiyasının qaçılmaz olduğunu bilir və məhz bu kimi əməlləri ilə mövcud prosesə zərbə vurmağa cəhdlər göstərir, xarici havadarları isə necə deyərlər, İrəvana ürək-dirək verir, Azərbaycan əleyhinə müxtəlif bəyanatlar səsləndirməklə odun üzərinə benzin tökməklə məşğul olur.

Daha bir məqama diqqət yetirək: bu, Ermənistanın illər boyu ona əl uzadan və kömək edən, ayaqda saxlamağa şərait yaradan ölkələrə qarşı xəyanət etməsi, açığını desək, istənilən anda kürəyindən xəncər saplaması faktıdır. Misal üçün, əgər əvvəlki dövrlərdə Ermənistan Rusiyaya arxalanır və işğalçılıq siyasətini davam etdirirdisə, son hadisələr artıq bu ölkənin oryentirlərini dəyişdiyini və açıq şəkildə Qərbdə dəstək axtardığını göstərdi. Ölkənin baş naziri Nikol Paşinyanın, təhlükəsizlik şurasının sədri Armen Qriqoryanın, xarici işlər naziri Ararat Mirzoyanın, müdafiə naziri Suren Pakikyanın ABŞ-a, Fransaya və s. Qərb ölkələrinə səfərlərinin ardınca onların özlərinə arxayın şəkildə sərsəm bəyanatlar vermələri də məhz bu xüsusa söykənir.



### Bu regionun, ümumiyyətlə, həmin dairələrə nə aidiyyatı var, nə də ehtiyacı

Hələ bu da azmış kimi, Ermənistan artıq NATO-nu, o cümlədən, ayrı-ayrılıqda ABŞ və Fransa hərbçilərini bölgəyə gətirməyi və öz revanşist məqsədlərini Qərbin əli ilə reallaşdırmağı düşündüyünü gizlətmir. Halbuki, bu regionun ümumiyyətlə həmin dairələrə nə aidiyyatı var, nə də ehtiyacı. Region yalnız ona bağlı olan qonşu ölkələrin səyi, sülh məqsədli, inkişaflı səyləri ilə öz sabitliyini təmin edə, inkişaf yolunu tuta bilər. Lakin bütün bu imkanların mövcud olmasına baxmayaraq, İrəvanın xülyalara dalan oyunbazlıqları münbit prosesi əngəlləməyə hesablanıb. Daha dəqiq desək, Ermənistanın bu manipulyasiya, təxribat və siyasi avantüralarının son məqsədi sülh prosesini ləngitmək, hətta mümkündürsə iflasa uğratmaqdır. Artıq faktdır ki, Ermənistan regionda formalaşan yeni arxitekturanı, olduqca pozitiv əməkdaşlıq imkanlarını, inkişafı və təhlükəsizliyi təhdid edir və açılan yeni perspektivlərə zərbə vurmağa çalışır. Bu məqamlar isə əslində Ermənistanın özünü dalana doğru sıxışdırılmasına zəminlər yaradır. Çünki nə Azərbaycan, nə Rusiya, nə də Türkiyə kimi regionun aparıcı dövlətləri onun məqsədlərinin reallaşmasına əsla imkan verməz.

### Bakı bu sualların cavablarını gözləyir

Təəssüf ki, dünya güclərinin bir qismi Ermənistanın hazırda yürütdüyü siyasətin mahiyyətini aydın görmürlər və onlar başlıcası ilə real həqiqətləri açıq gözlə görməli, İrəvanın əsl niyyətlərini düzgün qiymətləndirməli, Ermənistanı bu iddialardan əl çəkməyə məcbur etməklə sülh prosesinə öz töhfələrini verməlidirlər. Ancaq əfsuslar olsun ki, bizlər bunu müşahidə etmirik və səbəblərini də yazının əvvəlində qeyd etmişik...

Əgər bu gün müxtəlif ölkələrdə - əsasən, ABŞ Konqresində və Nümayəndələr palatasında, Fransa senatında, Avropanın bəzi parlament dairələrində Ermənistanın regiondakı sabitliyi, sülh çağırışlarını pozmağa yönəlmiş addımlarına dəstəklər göstərilirsə, tarixi Azərbaycan torpaqları, yaxud sərhədləri Ermənistanın "suveren ərazisi" kimi göstərilirsə onda belə addımların birbaşa Azərbaycanın ərazi bütövlüyünə təhdid kimi qiymətləndirilməsi faktı ortaya çıxır. İstər başda Nensi Pelosi olmaqla ermənipərəst amerikalı konqresmenlər olsun, istər Fransa prezidenti Emmanuel Makron olmaqla onun siyasi ətrafı olsun, istər Yunanıstan iqtidarının nümayəndələri olsun - onlar daha yaxşı olardı ki, öz ölkələrində baş verən qanunsuzluqlar, insan haqlarının pozulması və s. kimi hadisələrlə maraqlanıb problemlərini həll etsinlər. Daha Azərbaycanın və ümumilikdə regionumuzun işlərinə sözün əsl mənasında burunlarını dürtməsinlər!

Və son olaraq özləri-özlərinə sual versinlər ki, onlar Ermənistanın Azərbaycana qarşı yürütdüyü 30 illik işğalçılıq siyasəti dövründə niyə danışmırdılar, beynəlxalq qanunları, ədalət prinsipini nəyə görə müdafiə etmirdilər? Bakı, bu sualların cavablarını gözləyir və heç zaman da imkan verilməyəcək ki, nə Ermənistan, nə də onun havadarları öz kirli məqsədlərinə nail olsunlar. Əksinə, Ermənistanın təxribatları bu ölkəyə baha başa oturacaq, bax, buna əsla şübhə etməsinlər!

***Rövşən RƏSULOV***

# Xalqa xəyanət siyasəti

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

***Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "Vətəndaş cəmiyyəti, hüquqi dövlət quruculuğu" istiqaməti çərçivəsində hazırlanıb.***

Azərbaycanda sərbəst toplaşmaq, azad düşünmək, söz və mətbuat azadlığı, informasiya fəaliyyəti ilə məşğul olmaq- bunların hamısı Azərbaycanın konstitusion normalarıdır. Bu institutların fəaliyyəti üçün Azərbaycanda hər cür şərait yaradılıb və Azərbaycanın demokratik dövlət quruculuğu prosesinin ayrılmaz tərkib hissəsidir. Lakin bundan sui-istifadə etməyə çalışan radikal qüvvələr informasiya məkanında insanları yanlış məlumat-



larla təchiz etməyə çalışırlar.

Azərbaycan hüquqi dövlətdir. Burada hüquqi normalar hər şeydən üstün tutulur. Lakin bu, o demək deyil ki, kimlərsə xarici qüvvələrdən aldığı tapşırıqla ölkədə ictimai-siyasi sabitliyi pozmağa yönəlik hərəkətlər etsin. Azərbaycanda az qala hamı bilir ki, hansı qüvvələr, hansı şəbəkələr hardan idarə olunur, maliyyələri hansı ölkədən gəlir.

Ümumiyyətlə götürdükdə, beynəlxalq təşkilatların hər hansı bir ölkədəki ictimai təşkilatlara yardım göstərməsi yaxşı haldır. Lakin bu yardım humanist xarakter daşımalı, ölkənin və xalqın mənafeyinə zidd olmamalıdır.

Maraqlı orasıdır ki, nədənsə Qərb dairələri və İran təşkilatları Azərbaycanda yalnız radikal qurumlara yardım edirlər. Bu ölkədə cox sayda fərqli siyasi xətti olan partiya və təşkilatlar var. Lakin ağalar köhnə qullarından bərk yapışıblar. Çünki belə artistlər bir də ələ düşməz.

Bu dəstəyin əsas səbəbi odur ki, radikallar pul və hakimiyyət naminə hər şeyi satmağa razıdırlar. Məsələ bundadır ki, bu qüvvələr özlərinin şəxsi maraqları naminə dövlətin, millətin maraqlarını qurban verməyə hazırdır. Beləliklə, aydın olur ki, radikal müxalifətin maraqları Azərbaycanı sevməyən qüvvələrlə nədən üst-üstə düşür.

Azərbaycan müxalifəti məhz radikal müxalifətin əməlləri nəticəsində dağılmış bir vəziyyətdədir. Bu duruma başqaları ilə bərabər özləri də düşüblər. radikallar siyasi meydanda son günlərini yaşayırlar. Buna görə də həmin qüvvələr nəyin bahasına olursa-olsun varlığını qorumağa çalışırlar.

Uzun müddətdir həyata keçməyən hakimiyyət arzularını dəfn edən siyasətbazlar heç olmasa, bu yolla xarici ağaların diqqət mərkəzinə gələcəklərini düşünürlər. Qərbdən gələn maliyyə ilə şad-xürrəm yaşayan bu siyasi artistləri heç də xalqın sosial vəziyyəti, ölkənin iqtisadi inkişafı, hərbi-siyasi qüdrəti düşündürmür, yalnız özlərinin daha çox qrant qoparıb komfort içində yaşamaqları düşündürür.

Bu adamların Azərbaycanın milli maraqları ilə heç bir bağlılığı yoxdur. Bunlar üçün milli maraqlar yox, öz şəxsi maraqları əsasdır. Onların bu mövqeyi isə Azərbaycanı istəməyən düşmən qüvvələrin, anti-Azərbaycan şəbəkənin maraqları ilə tam olaraq üst-üstə düşür.

Ermənistan və onun havadarları olan ABŞ və Fransanın təxribatlarına qarşı bir iş görüləndə baş verəndə ölkədə gündəmi dəyişdirməkdə, hakimiyyətin



başını lüzumsuz işlərlə qatmağa çalışmaqda məqsəd aydındır.

Məsələn, nə vaxt ki Ermənistanla danışıqlarda kritik məqam yarananda və ya sərhəddə qarşıdurma yarananda o saat bəzi "amerikanski" müxalifət təşkilatları, "yevropeyski" bloggerlər və "iranski" "dindarlar" əllərindəki media və sosial şəbəkələrlə birgə düşürlər ortalığa və başlayırlar ordumuza, dövlətimizə şər-böhtan atmağa. Hətta ölkəmizi işğalçı, təcavüzkar adlandırmağa qədər gedirlər. Bu artıq müxalifətçilik deyil, konkret olaraq vətənə, xalqa xəyanətdir.

Ya da "beynəlxalq təşkilatlar" Azərbaycana hansısa məsələdə nəyisə qəbul etdirmək lazım gələndə, xaricdən verilən tapşırıqla xarici maliyyəyə bağlı təşkilatlar və media diversantları bir hengamə çıxarırlar ki, gəl görəsən.

Uzun müddət böyük təbliğat apardıqları bir halda meydana 2-3 min nəfər də çıxara bilməyən bu qüvvələr arxalarında xalq dəstəyi olmadığını yaxşı başa düşürlər. Buna görə də, xalqa yox, xarici mərkəzlərə arxalanırlar.

Bu adamlar dinəndə milli mənafedən filandan danışırlar. Amma hələ anlamırlar ki, siyasi müxalifət dövlətə qarşı yox, hakimiyyətlə mübarizə apara bilər. Ümumilli maraqlara, dövlət mənafelərinə qarşı çıxa bilməz. Hakimiyyət və dövlət tamam fərqli anlayışlardır.

Dövlətimizin və xalqımızın mənafeyinə zidd olan hərəkətlərdə bulunmaq xəyanətdir- milli mənafelərin əksinə olaraq müharibə şəraitində yaşayan bir ölkədə daxili qarşıdurmalara yaratmaq cəhdinə başqa nə ad vermək olar ki? Şübhə yoxdur ki, Azərbaycan xalqı bu adamları yaxşı tanıdığı, mahiyyətini bildiyi üçün heç zaman amerikan tulalarının, İran qulbeçələrinin səsinə səs verməyəcək.

***Elçin Bayramlı***

ARAŞDIRMA

# Bəzi marketlərdə niyə ƏDV verilmir?



***Əlavə dəyər vergisinin bölüşdürülməsi 1957-ci ildə Romada Avropa İqtisadi Birliyinin yaradılması haqqında müqavilənin imzalanması ilə başlamışdır. Bu müqaviləyə əsasən, iştirak edən bütün ölkələr öz vergi sistemlərini ümumi bazar yaratmaq maraqlarına uyğun təşkil etməli idilər. 1967-ci ildə əlavə dəyər vergisini Avropada əsas dolayı vergi kimi elan etdi. Eyni zamanda, 1972-ci ilin sonuna qədər bir çox dövlətlər tərəfindən bu verginin öz vergi sistemlərinə daxil edilməsini təmin etdi.***

Həmçinin 1967-ci ildə Danimarkada, 1968-ci ildə isə Almaniyada fəaliyyət göstərməyə başladı. 1977-ci ildə hazırda Avropada qüvvədə olan ƏDV sisteminin əsasını təsdiq etmişdir. ƏDV vergisindən dünyanın bir çox ölkəsində istifadə olunur: Latın Amerikası, İndoneziya, Türkiyə, demək olar ki, bütün Avropa ölkələri, Cənubi Amerikanın bir sıra ölkələri və s. Kanada və ABŞ-da yığım üsuluna görə ƏDV-yə yaxın olan satış vergisi tətbiq edilir. ƏDV-nin bölgüsü bu verginin bazar iqtisadiyyatının tələblərinə cavab verdiyini göstərir.

ƏDV dərəcələrinin müəyyən edilməsində müxtəlif yanaşmalar mövcuddur. Tariflərin orta səviyyəsi 15-25% arasında dəyişir. Bir çox ölkələrdə məhsulun növündən və sosial-iqtisadi əhəmiyyətindən





asılı olaraq dərəcələr şkalası tətbiq edilir.

Rusiyada əlavə dəyər vergisi 1992-ci il yanvarın 1-dən tətbiq edilib. Ökədə 70 ilə yaxındır mövcud olan dövriyyə vergisini və 1990-cı ilin dekabrında tətbiq edilən satış vergisini əvəz edib. Əlavə dəyər vergisi dərəcəsi ilkin olaraq 28% müəyyən edilib. Bir il sonra isə 20%-ə endirildi. Həmçinin bu zaman siyahıda yer alan uşaq malları və ərzaq məhsulları üçün 10 faizlik güzəşt tətbiq edilir.

Rusiyada əlavə dəyər vergisi təkcə əsas dolayı vergi deyil, həm də müxtəlif səviyyəli büdcələrin gəlir hissəsini təşkil edən əsas vergidir. Əlavə dəyər vergisi üzrə gəlirlər hər hansı digər vergilərdən, o cümlədən gəlir vergisindən gəlirləri üstələyir. Vergi orqanları ilə mübahisələr əsasən ƏDV-nin hesablanması, ilkin sənədlərin işlənməsi, ƏDV-nin ödənilməsi (geri qaytarılması, əvəzləşdirilməsi), ƏDV-nin vergi endirimlərinin tətbiqi, ƏDV ödəyicilərində qarşı tərəflərin vicdanlı münasibəti ilə bağlı yaranır.

Bu problemin həlli yollarından biri ƏDV hesablaşmaları üçün xüsusi bank hesabları sisteminin və ƏDV-nin qaytarılması üçün xüsusi qaydaların yaradılmasıdır. Əlavə dəyər vergisinin qaytarılması problemini həll etməyin başqa bir yolu, yalnız təşkilatın təchizatçıları ƏDV-ni faktiki ödədiyi halda ƏDV-nin geri qaytarılması imkanını qanunvericiliklə müəyyən etməkdir.

Bu ideya vergi ödəyicisinin ƏDV-nin əvəzinin ödənilməsi üçün təqdim edildikdən sonra onun təchizatçıları tərəfindən satılan mallara görə verginin faktiki ödənilməsini göstərən sənədləri vergi orqanlarına təqdim etmək öhdəliyini müəyyən etməklə həyata keçirilə bilər.

Yuxarıda deyilənlərə əsaslanaraq belə nəticəyə gəlmək olar ki, əlavə dəyər vergisinin müasirləşdirilməsi və inzibatçılığı zəhmət tələb edən məsələdir və dövlət iqtisadiyyatına zərər vurmamaq üçün əmək məhsuldarlığı balanslaşdırılmış şəkildə həll edilməlidir.

ƏDV bəyannamələrinin elektron qaydada verilməsində də çətinliklər var. 2014-cü il yanvarın 1-dən demək olar ki, bütün təşkilatlar və fərdi sahibkarlar işçilərinin sayından asılı olmayaraq ƏDV bəyannamələrini elektron qaydada təqdim etmişdir. Həm hüquqşünaslar, həm də tənqidçilər ƏDV-ni gəlir vergisinə alternativ hesab edirlər. Amma bu hər zaman belə olmur. Məsələn, Böyük Britaniyada fiziki və hüquqi şəxslər həm gəlir vergisi, həmçinin də ƏDV vergisi ödəyir.

Əlavə Dəyər Vergisi (ƏDV) dünyanın iqtisadi cəhətdən inkişaf etmiş 160-dan çox ölkəsində tətbiq olunan, ən geniş yayılmış vergi növlərindən biridir. ƏDV faizləri hər ölkədə fərqli ola bilər. Məsələn, Azərbaycanda ƏDV dərəcəsi 18 faiz, Macarıstanda 27 faiz, Tailandda isə 7 faizdir.

ƏDV vergisi Azərbaycan Respublikasında 1992-ci ilin 31 dekabr tarixindən tətbiq edilmişdir. İlk olaraq bizdə bu vergi 28 faiz olaraq nəzərdə tutulmuş sonradan isə 18 faiz olaraq tutulmağa başlanmışdır. Əlavə dəyər vergisi anlayışı Əlavə Dəyər Vergisi (bundan sonra ƏDV) vergi tutulan dövriyyədən hesablanan verginin məbləği ilə bu məcəllənin müddəalarına uyğun olaraq verilən elektron vergi hesab-fakturalara və ya idxalda ƏDV-nin ödənildiyini göstərən sənədlərə müvafiq surətdə əvəzləşdirilməli olan verginin məbləği arasındakı fərqdir. ƏDV-nin ödəyicisi kimi qeydiyyatdan keçən və ya qeydiyyatdan keçməli olan şəxs ƏDV-nin ödəyicisidir.

Qeydiyyata dair ərizə verməli olan, lakin qeydiyyatdan keçməmiş şəxs qeydiyyata dair ərizə vermək öhdəliyinin yarandığı dövrdən sonrakı hesabat dövrünün başlanğıcından etibarən vergi ödəyicisi sayılır.

154.3 maddəsinə əsasən isə Azərbaycan Respublikasına ƏDV tutulan malları idxal edən şəxslər bu cür idxal malları üzrə ƏDV-nin ödəyiciləri sayılırlar. 154.4. ƏDV-nin məqsədləri üçün qeydiyyatdan keçmədən iş görən və ya xidmət göstərən və bu Məcəllənin 169-cu maddəsinə müvafiq surətdə vergiyə cəlb edilməli olan qeyri-rezident şəxs həmin işlər və ya xidmətlər üzrə vergi ödəyicisi sayılır.

2020-ci ildə Vergi Məcəlləsinin təsdiq edilmiş yeni qaydasına əsasən, ticarət və ya iaşə obyektlərindən alınmış mallara görə ödənilmiş əlavə dəyər vergisinin (ƏDV) bir hissəsi istehlakçılara geri qaytarılır. Qaydalara görə, qaytarılan ƏDV nağdsız ödənişlər üzrə 15 faiz, nağd ödənişlər üzrə isə 10 faiz təşkil edir.

Bəzi ticarət və iaşə obyektləri alınan məhsullar üzrə çeki verməkdən yayınır, digərləri rahatlıqla çeki versə də, sistemə yüklənən zaman həmin obyektin ƏDV ödəyicisi olmadığı və ya artıq bu çekin sistemə yükləndiyi ortaya çıxır. "ƏDV-ni geri al" layihəsi əhalinin nağdsız ödənişlər həyata keçirməsi üçün stimullaşdırıcı xarakter daşımasına, kartla ödənişdə qaytarılan ƏDV-nin daha yüksək olmasına baxmayaraq, bəzi iaşə obyektləri nağdsız ödəniş zamanı yalnız bank məlumatı olan çeki alıcıya təqdim edir. ƏDV fiskal kod və ya "QR kod" olan çeki isə özlərində saxlayırlar. Bəzi alıcılar utanaraq ya çeki tələb etmir, bəziləri isə bunu tələb etdikdə satıcı tərəfindən daha qəzəblə qarşılandıqlarını deyirlər.

Xidmətin məlumatına görə, elektron sistemə daxil edilən çeklər üzrə bir sıra hallarda ƏDV-nin geri qaytarılmasından imtina halları da müşahidə edilir. Vergi Məcəlləsində nəzarət-kassa aparatının çeklərindəki məlumatlarla bağlı konkret tələblər mövcuddur. Yəni fiskal çeklərdə məhsulun adının qeyd edilməməsi, çeklərin ümumi tələblərə uyğun olmaması, məsələn, malın və ya xidmətin adı, ölçü vahidi, miqdarı, bir vahidinin qiyməti və yekun məbləğ, o cümlədən ƏDV-nin məbləği, nəzarət-kassa aparatının markası və zavod nömrəsi, aparatın fiskal rejiminin nişanı (əlaməti), malın sürətli məlumat kodu (Quick Response Code) və s. ƏDV-nin geri alınması üçün imtinaya səbəb ola bilər: "Qanunvericiliyə əsasən nağd pul hesablaşmaları aparılan zaman istehlakçıya çek, qəbz, bank çıxarışlarını və digər ciddi hesabat blanklarını təqdim etmək vergi ödəyicisinin vəzifələrinə aid edilib. Eyni zamanda "İstehlakçıların hüquqlarının müdafiəsi haqqında" Azərbaycan Respublikasının Qanununun 7-ci maddəsinin müddəalarına əsasən, satıcı istehlakçıya mal satarkən ona qəbz, mal, kassa çeki və ya digər yazılı sənəd verməlidir".

2022-ci il yanvarın 1-dən etibarən tibbi xidmətlər sahəsində dövriyyələrin şəffaflaşdırılması və bu prosesdə vətəndaşların birbaşa iştirakı məqsədi ilə burada da "ƏDV geri al sistemi" tətbiq edilir. Alkoqollu içkilər və tütün məmulatlarının əhalinin sağlamlığına mənfi təsir göstərən zərərli məhsullar olduğunu nəzərə alaraq bu məhsullar üzrə ƏDV-nin geri qaytarılması məqsədəmüvafiq hesab edilməyib. 2022-ci il yanvarın 1-dən avtomobillərin, 2022-ci il oktyabrın 1-dən isə alkoqollu içkilərin və tütün məmulatlarının alışına görə ödənilən ƏDV geri qaytarılmır.

Vergi ödəyicisinə təqvim ili ərzində belə hallara birinci dəfə yol verildikdə 1000 manat məbləğində, ikinci dəfə yol verildikdə 3000 manat, təqvim ili ərzində belə hallara üç və daha çox yol verildikdə isə 6000 manat məbləğində maliyyə sanksiyası tətbiq edilir: "Belə halları müşahidə edən alıcılar vergi qanunvericiliyinin pozulması faktları barədə ətraflı məlumatla, qeyri-anonim olaraq Dövlət Vergi Xidmətinin saytının "Müraciətlər" bölməsinin "Dövlət Vergi Xidmətinə müraciət" alt bölməsinə və ya vergi ödəyiciləri xidmət mərkəzlərinə müraciət edə bilərlər".

***Havar Şəfiyeva***

SON SƏHİFƏ

Səs

1 oktyabr
2022-ci il

# Xaricdə təhsil almaq üçün hansı sənədlər lazımdır?

***“Azərbaycanda təhsil almaq üçün müraciət edən əcnəbilər xüsusi qabiliyyət səviyyələri təhsil müəssisələrinin müəllimləri tərəfindən yoxlanılıb, tədris standartlarımıza uyğun olduğu təsdiqləndikdən sonra 1 illik hazırlıq kursuna qəbul olmaq üçün bir sıra sənədləri təqdim etməlidirlər”. Bu sözləri SİA-ya açıqlamasında təhsil eksperti Kamran Əsədov deyib.***



**TƏHSİL EKSPERTİ İZAH ETDİ**

1. Əvvəlki təhsil pilləsində (səviyyəsində) keçdiyi fənlər və həmin fənlərdən aldıqları qiymətləri göstərən və müvafiq qaydada leqallaşdırılmış ( və ya apostil olunmuş) təhsil haqqında sənədin (sənədlərin) və onun Azərbaycan dilinə tərcüməsinin notariat qaydada təstiq edilmiş surəti (surətləri).

İncəsənət Universiteti, Naxçıvan Dövlət Konservatoriyasını müvafiq ixtisas uyğun hazırlıq kursunu bitirdiyi ilə bağlı şəhadətnamə təqdim edərsə, o bakalavr pilləsinin I kursuna qəbul edilir.

Əcnəbi vətəndaşlar Azərbaycan Milli Konservatoriyasında bir il hazırlıq kursu keçdikdən sonra imtahan verərək Azərbaycan Milli Konservatoriyasına qəbul olunur. Azərbaycan Respublikası ərazisində daimi yaşama icazəsi olan, ikili vətəndaşlar digər əcnəbi təhsilalanlar kimi ali təhsil müəssisəsinə birbaşa qəbul ola bilməz.

Azərbaycan Milli Konservatoriyasında təhsil almaq istəyən vətəndaş ölkəyə təhsil vizası ilə daxil olmalıdır. Ölkəyə daxil olduğu on gün ərzində əcnəbi vətəndaş yaşadığı dəqiq ünvanla bağlı Dövlət Miqrasiya idarəsinə məlumat verməlidir. Müvəqqəti yaşama icazəsi almaq üçün Dövlət Miqrasiya qanunvericiliyində nəzərdə tutulan sənədləri vaxtında qanuni nümayəndəyə təhvil verməlidir. Hər hansı bir səbəbdən ali məktəbdən xaric olan əcnəbi tələbə haqqında məlumat üç iş günü ərzində Dövlət Miqrasiya xidməti və Təhsil Nazirliyinə məlumat verilir. Həmin şəxsin daimi yaşama icazəsi ləğv edilir.

Doktorantura pilləsi üzrə təhsil almaq istəyən əcnəbilər aşağıdakı sənədləri təqdim etməlidirlər:

**1.** Təhsil müəssisəsi rəhbərinin adına ərizə

**2.** Kadrların şəxsi qeydiyyat vərəqi

**3.** Tərcümeyi-hal

**4.** İş yerindən xasiyyətnamə



**2.** Sağlamlıq, o cümlədən QİÇS, Hepatit B və C viruslarının daşıyıcısı olmaması haqqında arayış.

**3.** Etibarlı sərhəd keçmə sənədi - Təhsil vizası.

**4.** Fəxri təltiflər sertifikatlar, diplomlar, SD-lər, DVD-lər və digər bu kimi sənədlərin surətləri (mövcud olduğu halda)

Əgər əcnəbinin müvafiq təhsil səviyyəsi üzrə ixtisas hazırlığı və tədris dilini bilmə səviyyəsi (Azərbaycan dili) bakalavr pilləsində təhsil almaq üçün Azərbaycan Milli Konservatoriyasının müəyyən etdiyi tələblərə uyğun gələrsə o zaman ekstern yolla, imtahan verərək hazırlıq kursunu keçmədən bakalavr pilləsinə qəbul edilir.

Kamran Əsədov sözlərinə belə davam edib: ”Əgər əcənəbi tələbə Bakı Musiqi Akademiyası, Azərbaycan Dövlət Mədəniyyət və

**5.** Əmək kitabçasından çıxarış

**6.** Çap olunmuş elmi işlərin siyahısı

Keçdiyi fənlər və həmin fənlərdən aldıqları qiymətləri göstərən təhsil haqqında diplomun (diplomların) notarius tərəfindən təsdiq olunmuş surəti (surətləri); (Azərbaycan dilində)

**1.** Şəxsiyyət vəsiqəsinin surəti

**2.** 2 ədəd şəkil (3x4)

**3.** Seçilmiş mövzuya uyğun avtoreferat (12 səhifə)

Qeyd: Tələbə 3 fəndən imtahan verməlidir:

1) İxtisası üzrə
2) Fəlsəfə
3) İngilis dili

Doktorantura pilləsinə qəbul olduğu halda tələbə, 3 il təhsil alır”.

*Ayşən Vəli*





# Kasilyas Şakira ilə eşq yaşayır?

“Real”ın sabiq qapıçısı İker Kasilyas kolumbiyalı müğənni Şakira ilə sevgili olduqları barədə yayılan xəbərlərə münasibət bildirib. Qol.az xəbər verir ki, tərəflər İnstaqram hesablarından bir-birlərini izləməyə aldıqlarından sonra onların sevgili olduğu haqda söz-söhbətlər yaranmağa başlayıb.

Kasilyas isə İnstaqram hesabının ”History” bölümündə etdiyi paylaşımlarla bu məlumatları ələ salıb və təkzib edib. O, həmin xəbər başlıqlarını ayrı-ayrı paylaşıb. Bununla da 41 yaşlı keçmiş qolkiper Şakira ilə bir-birlərini izləməyə almalarının sevgili olduqları mənasına gəlmədiyinə və məlumatların şayiə olduğuna işarə edib.

Qeyd edək ki, Şakira iyunun 4-də ”Barselona”nın futbolçusu Jerar Pike ilə 11 illik münasibətinə son qoyub. Bildirilirdi ki, buna səbəb müdafiəçinin xəyanət etməsi olub.



## Oktyabrın ilk günündə 28 dərəcə isti olacaq

Bu gün oktyabrın 1-də Bakıda və Abşeron yarımadasında hava şəraitinin dəyişkən buludlu olacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir. Mülayim şimal küləyi əsəcək. Milli Hidrometeorologiya Xidmətindən SİA-ya bildirilib ki, havanın temperaturu gecə 19-21° isti, gündüz 25-28° isti olacaq. Bakıda gecə 19-21° isti, gündüz 25-27° isti olacaq. Atmosfer təzyiqi 767 mm civə sütunundan 763 mm civə sütununa enəcək. Nisbi rütubət 65-75% olacaq.

Azərbaycanın rayonlarında əsasən yağmursuz keçəcək. Lakin gündüz bəzi yerlərdə şimşək çaxacağı, qısamüddətli yağış yağacağı gözlənilir. Gecə və səhər saatlarında duman olacaq. Mülayim şərq küləyi əsəcək. Havanın temperaturu gecə 14-19° isti, gündüz 29-33° isti, dağlarda gecə 5-10° isti, gündüz 16-21° isti olacaq.

## Anna Ukraynanın qara siyahısına düşdü

***Ukraynanın Mədəniyyət və İnformasiya Siyasəti Nazirliyi rus müğənni və aktrisa Anna Semenoviçi ölkə üçün milli təhlükəsizliyə təhdid yaradan şəxslər siyahısına daxil edib.***

Bu barədə ”İnterfaks-Ukrayna” agentliyi məlumat yayıb.



Qeyd olunub ki, Semenoviç bu siyahıya Rusiyanın xarici siyasətini dəstəklədiyi, həmçinin Ukrayna ərazisində xüsusi hərbi əməliyyatda iştirak edən rus hərbçilərinə baş çəkdiyinə görə düşüb.



## BİLİRSİNİZMİ?

Bu günə qədər qeydə alınmış ən böyük aysberq 200 mil uzunluğunda və 60 mil enliyində olaraq və Belçikadan daha böyük sahəyə malikdir.

* * *

Alimlərin hesablamalarına görə, insanlar ildə 1330 milyard kub metrdən çox oksigen istifadə edirlər.

* * *

Elektirik lampasının ixtiraçısı Tomas Alva Edison qaranlıqdan qorxurdu

* * *

Dünyanın ən uzun adamının ayaq ölçüsü 66 -dır.

* * *

Çita ovunun arxasınca qaçır, əgər ovundan alacağı enerji qaçarkən sərf etdiyi enerjidən azdırsa, ovunu izləməyi buraxır.

* * *

Artıq kilolu insanlar psixoloji cəhətdən ətrafdakı insanların da daha çox yemək yeməsini və kilo almasını istəyirlər.

*Baş redaktor:*
**Bəhruz Quliyev**

Ünvanımız:
**Bakı şəhəri,
Üzeyir Hacıbəyov küçəsi, 66.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az**

**“ƏLİNCƏ” AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.
QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR
Tel: 598-33-90
Faks: 493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**

**Tiraj: 3600**